**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**AYTAC VƏLİ qızı RZALI**

# MÜASİR DÖVRDƏ BÖYÜK BRİTANİYA MƏTBUATINDA AZƏRBAYCAN OBRAZI

**İxtisas: HSM-060211-ÖLKƏŞÜNASLIQ**

**Magistr elmi dərəcəsi almaq üçün təqdim edilmiş**

**D İ S S E R T A S İ Y A**

**Elmi rəhbər:___________**

*Dos. Ş.H.Abdullayeva*

**BAKI – 2022**

## MÜNDƏRİCAT

**GİRİŞ...........................................................................................................3**

**I FƏSİL: AZƏRBAYCAN-İNGİLTƏRƏ MÜNASİBƏTLƏRİNİN İNKİŞAFI VƏ BRİTANİYA MƏTBUATI**

1.1. Azərbaycan-İngiltərə münasibətlərinin təşəkkülü...............................................5

1.2. Böyük Britaniya mətbuatının səciyyəvi xüsusiyyətləri......................................18

**II FƏSİL: AZƏRBAYCAN LOBBİSİNİN VƏ DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN İNGİLİS MƏTBUATINDAKI YERİ**

2.1. Azərbaycanın lobbiçilik fəaliyyətinin ingilis mətbuatındakı imici.....................34

2.2. İngilis mətbuatının I və II Dağlıq Qarabağ müharibələrinin fərqli yanaşması.....42

**NƏTİCƏ..........................................................................................................63**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI...........................................66**

# GİRİŞ

**Mövzunun aktuallığı.** Mətbuat yarandığı dövrdən əsas məqsədi müxtəlif vasitələrlə cəmiyyəti məlumatlandırmaq olan və günümüzdə də öz əhəmiyyətini qorumağa nail olmuş bir sahədir. İnternetin kəşfi və rabitə texnologiyalarının təkmilləşməsinin gətirdiyi yeniliklər zamanla mətbuatın məlumatlandırma vasitə və metodlarına da təsir göstərmişdir. Belə ki, əvvəllər qəzet, jurnal və s. digər nəşrlərlə həyata keçirilən bu proses artıq bir düymə ilə daxil ola biləcəyimiz veb-saytlar vasitəsilə baş tutmaqdadır.

Mətbuatın metod və vasitələrinin dəyişilməsi qədər məqsəd və vəzifələrində də yeniliklər baş vermişdir. Artıq məlumatlandırma funksiyası ilə yanaşı yerləşdiyi sistemin quruluşundan asılı olaraq cəmiyyətdə ictimai rəy formalaşdırmaq, dəyişmək və onu idarə etmək qabiliyyətləri qazanmışdır. Təbii olaraq yerləşdiyi dövlətin idarəetmə sistemi mətbuatın insanları “manupilasiya” funksiyasını tənzimləyir. Əsasən demokratik quruluşlu dövlətlərdə mətbuat minimum dərəcədə tənzimlənməyə tabe tutulur.

Böyük Britaniya dünyanın bir çox nüfuzlu qəzetlərinə, xəbər agentliklərinə sahib milli mətbuata malikdir. Bir sıra inkişaf etmiş ölkələrdə olduğu kimi ingilis mətbuatı da ölkənin həm daxili siyasi həyatında, həm də beynəlxalq əlaqələrində effektiv bir gücə sahibdir. Buna görə də mətbuatda yer alan hər hansı ölkə ilə bağlı məlumatlar ingilis cəmiyyətində həmin ölkənin mənfi və ya müsbət obrazını yaratmaqda vacib rol oynamaqdadır.

Gənc demokratik bir ölkə hesab edilən Azərbaycan üçün də siyasi, iqtisadi, sosial-mədəni əlaqələrinin güclü olduğu Avropa dövlətlərindən biri olan İngiltərə mətbuatında müsbət imicinin yaranması mühüm əhəmiyyət kəsb etməkdədir. Həmçinin Azərbaycanın “yaxşı” obrazının yaradılması Brexitdən sonra inkişaf etməkdə olan dövlətlərlə yeni səhifə açmağa hazırlaşan Birləşmiş Krallıq üçün də vacibdir. Bu  obraza təsir edən ən böyük amillərdən biri Dağlıq Qarabağ münaqişəsi hesab olunur. Bu səbəbdən ingilis mətbuatında hər iki Dağlıq Qarabağ müharibəsində

xalqımızın haqqlı davasının gerçəkliklərinin qərəzsiz şəkildə əks etdirilməsi, eyni zamanda ermənilərin təcavüzkar siyasətinin bütün açıqlığı ilə çatdırılması böyük rol oynayır.

**Problemin öyrənilmə dərəcəsi.** Zamanla inkişaf edən kommunikasiya texnologiyaları vasitəsilə daha çox insanın informasiya mənbələrinə daha rahat giriş əldə etməsi ilə mətbuat cəmiyyətlər üzərindəki təsir gücünü dəfələrlə artırmışdır. Bu səbəbdən ölkəmizin ingilis mətbuatındakı imicinin təhlili vacib hesab olunur. Dissertasiya işi İngiltərə mətbuatının xarakteristikası, Azərbaycan-Böyük Britaniya arasındakı münasibətlərin xüsusiyyətləri, Dağlıq Qarabağ münaqişəsinin ölkələrarası əlaqələrə, həmçinin ingilis mətbuatına təsirinə həsr edilmiş tədqiqat işi sayıla bilər. Azərbaycanda bu sahədə araşdırmalar edən alimlərdən Ə.Həsənov, R.Mehdiyev, F.Məmmədov, M.Qasımov, M.Abdullayev, İ.Qurbanov, Z.Bünyadov, xarici ölkə tədqiqatçılarından isə C.Bobinski, A.Liven, C.Uolker, M.Uolker, P.Taubmen və başqalarını göstərmək olar.

**Tədqiqatın obyekti.** Tədqiqatın obyekti kimi müasir dövrdə Böyük Britaniya mətbuatını təşkil edən nüfuzlu qəzet və jurnalları, onların fərqli aspektlərdən formalaşdırdığı Azərbaycan obrazının ümumi xüsusiyyətləridir.

**Tədqiqatın predmenti.** Tədqiqatın predmentini isə ingilis mətbuatında yer alan ölkə imicimizə fərqli yanaşmaların səbəbləri, mənfi və ya müsbət təsirə malik amillərin müəyyənləşdirilməsi və təhlil edilməsi təşkil edir.

**Tədqiqat mövzusunun məqsəd və vəzifələri.** Tədqiqat işinin məqsədi Azərbaycan-Böyük Britaniya münasibətlərinin tarixi inkişafı, ingilis mətbuatının səciyyəvi cəhətlərinin təhlili, ölkəmizin lobbiçilik fəaliyyətinin və ümumilikdə I və II Dağlıq Qarabağ müharibələrinin ölkələrarası əlaqələrdəki rolu və İngiltərə mətbuatında əks etdirilməsinin tədqiqidir. Bu məqsədlərə çatmaq üçün qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

- ✓ Tarixi aspektdən Azərbaycan-Böyük Britaniya arasındakı siyasi, iqtisadi, təhlükəsizlik və sosial-mədəni əlaqələrinin təşəkkülünün araşdırılması;

- ✓ İngiltərə mətbuatının inkişafınının mərhələlərini, aktual problemlərini və özünəməxsus xüsusiyyətlərini müəyyənləşdirmək;
- ✓ Azərbaycanın lobbiçilik fəaliyyətinin ölkənin imicinə təsiri və ingilis mətbuatdakı rolunu aydınlaşdırmaq;
- ✓ I və II Dağlıq Qarabağ müharibələri zamanı İngiltərə mətbuatındakı vəziyyəti əks etdirən xəbərləri təhlil etmək.

**Tədqiqat işinin nəzəri metodoloji bazası.** Tədqiqat işinin nəzəri bazasl bir sıra ədəbiyyatlardan, müxtəlif jurnalistlərin məqalələrindən təşkil olunmuş qəzet materiallarından, bunlarla yanaşı internet resurslarından ibarətdir.

Tədqiqat işinin nəzəri bazasına əsaslanaraq bir sıra metodlardan istifadə olunmuşdur. Ümumiyyətlə, dissertasiyanın metodoloji əsası fəaliyyətin təşkili və onun idarə olunması üçün baza rolunj oynamaqdadır. Bununla belə, bu işdə müşahidə, tarixi-müqayisəli, təhlil və nəticə çıxarılması, fəaliyyət məhsullarının öyrənilməsi metodlarından istifadə olunmuşdur. Ancaq daha çox müşahidə, təhlil və nəticə çıxarılması metodlarına üstünlük verilmişdir. Çünki ölkələrarası münasibətləri, ingilis mətbuatı, Azərbaycanın lobbiçilik fəaliyyətinin əsas xüsusiyyətləri öyrənilmiş, müxtəlf jurnalistlərin məqalələri təhlil edilmişdir.

**İşin aprobasiyası.** Tədqiqat işinin aprobasiyası Azərbaycan Dillər Universitetinin “Regionşünaslıq” kafedrasında həyata keçirilmişdir. Tədiqat mövzusu ilə əlaqədar Azərbaycan Dillər Universitetinin “Heydər Əliyev Və Şanlı Azərbaycan” adlı Respublika tələbə-şagird elmi kofrasında “Regionşünaslığın aktual problemləri” bölməsi altında “II Dağlıq Qarabağ müharibəsi müddətində Avropa Birliyinin məsələyə yanaşma tendensiyaları” adlı tezis, həmçinin daha sonra “Azərbaycan-Böyük Britaniya iqtisadi münasibətləri və Brexit-in təsiri” adlı məqalə çap olunmuşdur.

**Dissertasiyanın strukturu.** Tədqiqat işi giriş, iki fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın hər iki fəsilin hər biri iki fəsili əhatə edir.

# I FƏSİL:AZƏRBAYCAN-İNGİLTƏRƏ MÜNASİBƏTLƏRİNİN İNKİŞAFI VƏ BRİTANİYA MƏTBUATI

## 1.1. Azərbaycan-İngiltərə münasibətlərinin təşəkkülü

Keçən əsrin sonlarında Soyuq müharibənin bitməsi ilə beynəlxalq arenadakı bipolyar sistem sona çatmışdı. Beynəlxalq səviyyədə baş verən köklü dəyişiklik özünü bilavasitə regionlarda da göstərməyə başlamışdı. SSRİ-nin çökməsi ilə yaranan yeni müstəqil dövlətlərin siyasətlərində isə müxtəlif tendensiyalar müşahidə olunurdu. Yeni müstəqil dövlətlərdən olan Azərbaycan da beynəlxalq arenadakı yerini sağlamlaşdırmağa çalışırdı.

1991-ci ildən etibarən Azərbaycanın xarici siyasətində fərqli tendensiyaların yaşandığı üç müxtəlif dövrü fərqləndirmək mümkündür. Bunlardan ilki 1990-1992-ci illərdə hakimiyyətdə olan Ayaz Mütəllibovun dövrü hesab olunur. Həmin dövrdə Rusiya meyilli xarici siyasət yeridilmiş eyni zamanda ölkəmiz MDB-ə üzvlüyə qəbul olunmuşdur. 2 illik bu dövrdən sonra isə xarici siyasətdə Əbülfəz Elçibəyin pantürkist siyasi xəttinin aparıldığı dövr yaşanmışdır. Nəhayət, ən son dönəm isə Heydər Əliyevin 1993-cü ilin iyununda hakimiyyətə gəlməsi ilə başlamışdır. Bu müddətdə ilk öncə xarici ölkələrlə münasibətlərdə balanslı siyasətin yeridilməsi, xüsusilə həm Rusiya həm də Qərblə əlaqələrdə bərabərliyin təmin edilməsi məqsədi qarşıya qoyulmuşdur. Həmçinin Avropa dövlətləri ilə münasibətlərin genişləndirilməsində energetika siyasətinə böyük önəm verilmişdir. Bununla da, həm digər qərb dövlətləri ilə, həm də daha öncədən iqtisadi əlaqələrimiz mövcud olan Böyük Britaniya ilə bu dövrdə diplomatik əlaqələr qurulmuşdur [2, s.85-97].

İngiltərə ilə rəsmi sistemli əlaqələrin qurulması XX əsrin sonlarına təsadüf etsə də, təməlində Bakı neftinin durduğu iqtisadi əlaqələrin kökləri həmin əsrin əvvəllərinə gedib çıxır. Bu illərdə Çar Rusiyasına daxil olan Azərbaycanda neft sənayesinin qurulması və inkişaf etdirilməsi prosesi gedirdi. Şəhərdə ən böyüyü "Shell" olmaqla 7 ingilis şirkəti fəaliyyət göstərməkdə idi və 1904-cü ilə nəzər saldıqda Böyük Britaniyanın neft ehtiyacının təxminən 47 faizinin Bakı yataqları hesabına ödənildiyini

görürük. Həmin illərdə İngiltərə Baş naziri Uinston Çörçil I dünya müharibəsində ingilis donanmasında kömürün neftlə dəyişdirilməsi əmrini vermişdi və bu da neftə olan marağı daha da artırmışdı [38, s.102-109].

Çar Rusiyasının dağılmasından sonrakı 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cumhuriyyətinin müstəqilliyinin digər dünya gücləri tərəfindən de-fakto tanınmasında ingilis lord Kerzonun böyük rolu olmuşdur. Buna səbəb həm Azərbaycanın zəngin enerji yataqlarına sahib olması, həm də ingilislərin ölkəmiz üçün öz planlarını həyata keçirmək istəyi idi. Hətta 1920-nin 20 yanvarında AXC-nin müstəqilliyinin tanınmasınından sonra ölkədə açılan 16 diplomatik nümayəndəliklərdən biri də İngiltərəyə məxsus idi. Lakin bu vəziyyət uzun çəkmədi, SSRİ-nin tərkibinə qatılması ilə siyasi əlaqələr kəsilsə də, 30-cu illərə qədər Birləşmiş Krallıq hələ də ölkədə fəaliyyətdə idi. Buna misal olaraq "Metropolitan-Vicker" şirkətinin şəhərin elektrikləşdirilməsində böyük qatqısı olmuşdur. Bundan sonrakı müddətdən Azərbaycan müstəqilliyini elan edənədək iki ölkə arasındakı əlaqələr yalnız mədəni sahədə özünü göstərmişdir. Nəhayət, Azərbaycan respublikası müstəqillik qazanaraq sərbəst xarici siyasət yeritməyə nail oldu və Birləşmiş Krallıq ilə ikitərəfli münasibətləri inkişaf etdirmək imkanı yarandı [3, s.27].

Azərbaycan Respublikası müstəqilliyini 1991-ci ilin 18 oktyabrında elan etdikdən sonra həmin ilin 29 dekabrında referendum ilə xalq tərəfindən də qəbul edildi. Bundan iki gün sonra isə Böyük Britaniya Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri oldu. Bununla da iki ölkə arasında rəsmi əlaqələr qurulmuş və əməkdaşlığın inkişafı üçün şərait yaranmışdır. İngiltərə XİN Duqlas Hoqq və Moskvadakı səfiri R.Breytyev Bakı ziyarəti zamanı iki ölkə arasında diplomatik əlaqələrin qurulması üçün razılıq əldə olunmuşdur. 11 mart 1992-ci ildə isə rəsmi olaraq bunun üçün anlaşma imzalanmışdır. Ziyarətin digər bir səbəb isə Dağlıq Qarabağda gedən müharibə haqqında yerindəcə məlumat əldə etmək, müharibənin dayandırılması və sülh bərqərar edilməsinə köməklik göstərmək idi. Duqlas Hoqq eyni zamanda də səfər zamanı Lordlar Palatasında Ermənistanı dəstəkləyən Kerolayn Koksun fikirlərinin

dövlətin baxış açısını göstərmədiyini və ölkəsinin bu problemdə neytral mövqeyə sahib olduğunu bildirmişdir [6, s.401].

1992-ci ilin 11 iyulunda İngiltərənin Rusiyadakı səfiri Brayan Froll ölkənin Azərbaycan səfiri vəzifəsinə gətirilmiş və  o zaman ki prezident Əbülfəz Elçibəyə öz diplomatik kimliyini təqdim etmişdir. Bakıdakı İngiltərə səfirliyi 1993-ün sentyabrından, İngiltərədəki Azərbaycan səfirliyi isə 1994-cü ilin yanvarında açılmışdır. 1992-1993-ci illərdə Birləşmiş Krallıq Azərbaycanla ikili münasibətləri daha da gücləndirmək üçün bir sıra praktik addımlar atmışdır. Krallığın əvvəlki Baş naziri Marqaret Tetçer, sənaye və ticarət naziri Maykl Hezltayn və "British Petroilum" şirkətinin rəhbərlərinin 1992-ci ilin sentyabrında Bakıya səfəri, daha sonra Baş nazir Con Meycorun Azərbaycan prezidentinə rəsmi məktub göndərməsi ölkəmizə olan marağın göstəricisi idi. Ancaq o dönəm üçün Azərbaycanın daxili vəziyyəti stabil olmadığından İngiltərəylə gedən proseslərlə o qədər də maraqlana bilməmişdilər. Daha sonra 1992-dəki hakimiyyət dəyişikliyi ilə Heydər Əliyev dövrü başlamış, ikili münasibətlər xeyli irəliləməyə başlamışdı. Heydər Əliyevin qəbul etdiyi ilk rəsmi ziyarətçisi Duglas Hoqq ölkəsinin Azərbaycanla hərtərəfli münasibətləri möhkəmləndirmək istədiyini vurğulamış və Dağlıq Qarabağ münaqişəsində ölkəmizin torpaq bütünlüyünü tanıdığını söyləmişdir. Daha önəmli bir hadisə isə İngiltərə parlamentinin hakim qrupu olan Mühafizəkarlar partiyasının nümayəndələrinin Bakıya səfəri və prezidentimizlə görüşləri olmuşdur. Bu səfərlərin digər maraqlı bir cəhəti onda idi ki, Azərbaycan prezidentinin hələ İngiltərəyə rəsmi ziyarəti baş verməd ən ingilis nümayəndələri ölkəmizə səfər etmişdi. Həmçinin Baş nazir Con Meycor prezidentimizə məktub göndərərək onunla görüşmək istəyini bildirmişdir [1, s.58-61].

Nəhayət prezidentimiz Heydər Əliyevin Böyük Britaniyaya ilk rəsmi ziyarəti 1994-cü ilin 19-23 fevral tarixlərində gerçəkləşmişdir. Bu ziyarət Azərbaycan-Böyük Britaniya münasibətlərinin təməlini əmələ gətirmişdir. Görüşlər zamanı 23 fevralda iki ölkə arasında bir sıra müqavilə və memorandumlar imzalanmışdır (“Təhsil, elm və mədəniyyət sahələrində əməkdaşlığa dair” saziş, “İkiqat verginin aradan qaldırması haqqında” müqavilə, “Hava daşımaları sahəsində haqqında” müqavilə, Energetika

sahəsində işbirliyi haqqında Memorandum, Kommunikasiya sahəsində razılıq haqqında Memorandum).

1994-1995-ci illərdə ölkələrarası görüşmələr daha intensiv hal almış, daha çox sahələrdə əməkdaşlığın əsasları qoyulmuşdur. 1994-cü ilin 20 sentyabrında imzalanan "Əsrin müqaviləsi" də mühüm əhəmiyyət kəsb etmişdir. 1918-ci ilin 19-24 iyun tarixlərində Heydər Əliyevin İngiltərəyə ikinci rəsmi ziyarəti, 2004-cü ilin 13-14 dekabrında isə Azərbaycanın yeni prezidenti İlham Əliyevin ilk rəsmi səfəri baş tutmuşdur. İlham Əliyev daha sonra həm 2002-ci il 6-7 avqust tarixlərində İngiltərədə keçirilən olimpiya oyunlarına qatılmış, həmçinin eyni zamanda o zamankı Baş nazir David Kameron ilə Londonda görüşmüşdür. Azərbaycan prezidentinin 2004, 2009 2012-ci illərdəki rəsmi ziyarətləri ölkələrarası ikili münasibətlərin və yüksək səviyyəli siyasi dialoqun inkişafına dəstək olmuşdur.

Ümumiyyətlə, Azərbaycan və Böyük Britaniya prezidentləri və nazirləri tərəfindən həyata keçirilən bir sıra yüksək səviyyəli görüşlərdə iki ölkə arasındakı rəsmi vəziyyətin təməlləri kimi qəbul edilən aşağıdakı müqavilələr imzalanmışdır:

- Azərbaycan-ingilis ticarət və sənayesi şurasının yaradılması haqqında anlaşma Memorandumu (29 noyabr 1995)
- İnvestisiyaların qorunması və təşviqi haqqında müqavilə (4 noyabr 1996)
- Gömrük məsələlərlə bağlı anlaşma Memorandumu (7 iyul 1997)
- Dostluq və əməkdaşlıq haqqında birgə bəyannamə (21 iyun 1998)
- Müdafiə əməkdaşlığı haqqında anlaşma Memorandumu (21 avqust 2004)
- İlham Əliyevin 14 dekabr 2004 və 13 iyul 2009-cu illərdə Londonun səyahətləri zamanı yayımlanan birgə bəyannamələr

Böyük Britaniya ikili əlaqələrlə yanaşı həmçinin ölkəmizin Avropa İttifaqı çərçivəsində digər ölkələrlə inteqrasiyasına dəstək verməkdədir. Buna misal olaraq, Aİ tərəfindən maliyyələşdirilən və İngiltərənin "Oxfam" Beynəlxalq Vətəndaş Cəmiyyəti Təşkilatı tərəfindən təşkil olunan "Azərbaycanda milli stratejik və kiçik fermer təsərrüfatlarına dəstəklə qida təhlükəsizliyinin artırılması" layihəsini göstərmək olar.

Azərbaycan-Ermənistan münasibətlərində isə İngiltərə Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq norma və prinsipləri əsasında həll edilməsinin tərəfdarıdır. ATƏT-in Minsk qrupunun üzvü olaraq Azərbaycanın müstəqilliyini və torpaq bütünlüyünü tanımış, eləcə də problemin beynəlxalq münasibətlərdəki "torpaq bütünlüyü" prinsipinə əsasən həll edilməsinə kömək göstərməkdədir. Ancaq belə bir ziddiyyətli məqam var ki, qondarma Dağlıq Qarabağ rejiminin lideri Bako Saakyan dəfələrlə heç bir məhdudiyyət olmadan İngiltərə və Fransaya səfər etmişdir. Halbuki, Avropa Birliyi tərəfindən Rusiyanın Cənubi Osetiya və Abxaziyanı Gürcüstandan ayırması və Ukrayna torpağı olan Krımı ilhaq etməsindən sonra bu torpaqlarda yaradılan rejimlərin rəsmilərinə viza qadağası qoyulmuşdu [5, s.348].

Ölkələr arasındakı dərin iqtisadi əlaqələrə gəldikdə isə 1991-ci ildən sonra siyasi əlaqələrin qurulması ilə daha da inkişaf etmişdir. Xüsusilə əvvəlki Baş nazir Marqaret Tetçerin Bakıya səfəri XX əsrin sonlarında ABŞ şirkətləri ilə rəqabət aparan ingilislər üçün daha əlverişli vəziyyət yaranmışdır. Elə bu səfər zamanı Azərbaycan hökuməti, BP və Norveçin "Statoil" şirkətləri arasında Çıraq və Şahdəniz yataqlarındakı təbii qaz resurslarının miqdarının müəyyənləşdirilməsi və istehsala hazırlığa başlanması haqqında müqavilə Tetçerin şəxsən iştirak etdiyi mərasimlə imzalandı. Müqavilədən dərhal sonra isə ABŞ ölkəmizə qarşı 907-ci düzəlişi qəbul etdi, bu isə Azərbaycan və İngiltərənin daha da yaxınlaşmasına səbəb oldu. Əvvəlki Baş nazirin ziyarətindən sonra isə sənaye və ticarət naziri Hezaltaynın ölkəmizə səfəri baş tutdu və daha bir anlaşmanın-ticarət və iqtisadi əməkdaşlıq haqqında- imzalanması ilə nəticələndi. Hətta o dövr Naxçıvan Ali Məclisinin baş sədri Heydər Əliyev 1993-cü ilin fevralında Moskvaya səfərə getmiş, orada İngiltərənin Rusiyadakı səfiri Brayan Folla görüşmüş və Naxçıvanın blokadaya düşməsi vəziyyətində İngiltərədən iqtisadi yardım istəmişdir. Heydər Əliyev həmçinin Böyük Britaniya səfərində BP və “Statoil” şirkətlərinin təşkil etdiyi Böyük Britaniya sənayeçilərinin konfransında iştirak etmiş və öz çıxışında ingilis iş adamlarını tamamilə azad bazar iqtisadiyyatına keçid etmək istəyən Azərbaycana investisiya qoyuluşunu artırmağa çağırmışdır. İqtisadi əlaqələrin dərinləşməsi prosesində Heydər Əliyevin BP və Statoil ilə yanaşı CPT, "Krayzer

Engineering", "John Brown" kimi şirkətlərin rəhbərləri ilə görüşməsi, onlarla hökümət arasında neft kənd təsərrüfatı texnologiya vəs. sahələrdə hərtərəfli əməkdaşlığın o cümlədən, ölkə iqtisadi strukturunun yenidən qurulması, həmin şirkətlərlə ortaq layihələrin aparılmasına dair addım və fəaliyyətləri böyük qatqı sağlamışdır. Bu səylər ölkənin milli maraqlarına xidmət edirdi və neft diplomatiyası və ya strategiyası adlandırılırdı [6, s.401-402].

Bu diplomatiya hər nə qədər digər bir Xəzəryanı dövlət olan Rusiyanın narazıçılığına səbəb olsa da, ingilislər rus şirkətlərini də yeni enerji layihələrinə dəvət etmiş, ölkəmizlə enerji əməkdaşlığında israrçı olduğunu bildirmişdir. Neft strategiyasının pik nöqtəsi 1994-cü ilin 20 sentyabrında "Əsrin müqaviləsi" imzalanması hesab olunur. Bu müqavilə Xəzərin Azərbaycan sektorunda yerləşən Azəri-Çıraq-Günəşli neft yataqlarının birgə işlənməsi və hasilatın pay şəklində bölüşdürülməsi üçün BP-nin rəhbərliyi altında Azərbaycan neft şirkəti ilə dünyanın ən iri 11 neft şirkəti arasında imzalanmışdır. İmzalar atıldıqdan sonra H.Əliyev energetika naziri Tim Eqqar ilə görüşmüş, həmçinin İngiltərənin Baş naziri Con Meycor prezidentimizə təbrik məktubu göndərmişdir [6, s.405-407].

Daha sonra 1995-ci ilin 29 noyabrında İngiltərəyə işgüzar səfərə gedən H.Əliyev “Adam Smith” institutunun təşkil etdiyi "Azərbaycanda investisiya imkanları" kontekstinin ələ alındığı beynəlxalq konfransda iştirak etmiş və bir daha ölkəmizin xarici investisiyalar üçün daim açıq olduğunu vurğulamışdır. Konfrans zamanı həmçinin daha bir uğurlu addım atılmış, Azərbaycan-İngiltərə sənaye ticarət şurasının yaradılmasına dair memorandum imzalanmışdır [ 2, s.17].

Bakı-Tbilisi-Ceyhan neft boru kəməri layihəsi iki ölkə arasındakı iqtisadi və energetika əlaqələrində mühüm yer tutur. Bu layihə ilk dəfə Əbülfəz Elçibəyin hakimiyyəti dövründə önə çıxarılsa da, o dönəm BP bu layihəni etiraz ilə qarşılamışdı. Lakin İngiltərədə baş verən hakimiyyət dəyişikliyindən sonra layihəni dəstəkləməyə başlamışdır. BTC müqaviləsinin imzalanması isə ATƏT-in 18 noyabr 1999-cu ildəki İstanbul sammitində həyata keçirilmişdir. BP-nin Azərbaycanın neft yataqlarındakı resursların boru kəmərini doldura biləcək qədər olduğunu açıqlamasından sonra

Fransanın “Total” şirkəti də konsorsiuma qatılmağa qərar vermişdir. İngiltərənin sənaye və energetika naziri Bryan Oilson 2002-ci ilin 3-5 iyununda ənənəvi şəkildə keçirilən "Neft-Təbii qaz 2002" sərgisində iştirak etmək üçün Bakıya gəlmişdi. Səfər zamanı həmçinin Heydər Əliyevlə görüşmüş, ikili arasında gedən söhbətin əsas mövzularından biri də BTC neft kəməri olmuşdur. Bu görüşdən təxminən bir ay sonra isə 2012-ci ilin 26 avqustunda Londonda BTC boru xətti şirkətinin yaradılması haqqında müqavilə imzalandı. İngiltərənin BP, Azərbaycanın SOCAR, ABŞ-ın UNOCAL, DELTA HESS, Türkiyənin TPAO, Yaponiyanın ITOCHU, İtaliyanın ENİ şirkətləri bu müqavilənin tərəfləri idilər. Hissələrdəki ən böyük paya BP (38,2%) və SOCAR (25%) sahib idi. Xəttin inşasına 2003-cü ildə start verilmiş, 2005-in 10 mayında neftlə doldurulmağa, nəhayət bir il sonra isə neftin ixracına başlanmışdır.

İrəliləyən zamanlarda da dövlətlərarası ticarət və iqtisadi əlaqələr artan xətlə davam etmişdir. 2015-ci ilin 2 martında Bakıda iki ölkənin hökümətləri arasında anlaşma haqqında memorandum imzalandı, az sonra isə ticarət və iqtisadi əməkdaşlığın gücləndirilməsi məqsədi ilə ortaq hökümətlərarası komissiya quruldu. Azərbaycan neft sektorunda ingilis şirkətləri önəmli aktor kimi liderdirlər, qeyri-neft sektorunda isə bütün xarici investisiyaların 16%-ni əhatə etməklə ikinci yerdədirlər. Qeyri-neft sektoru dedikdə əsasən tikinti, xidmət, təhsil vəs. sahələrə edilən sərmayələr nəzərdə tutulur. 25 illik müddətə baxıldığı zaman İngiltərənin ölkə iqtisadiyyatına cəmi 23 milyard $-dan artıq investisiya qoyduğu, ölkələrarası ticarət dövriyyəsinin isə 449,7 milyon $ həcmində olduğu görünür. Ümumiyyətlə isə ingilis sərmayəsi Azərbaycan iqtisadiyyatına qoyulan xarici investisiyaların 50 %-ni təşkil etməkdədir. "British Petroilum" əsas aktor olaraq qalsa da, Birləşmiş Krallıq ölkəmizdə fəaliyyət göstərən 100-dən artıq şirkəti ilə ən böyük sərmayeçimiz olaraq qalmaqdadır.

2014-cü ildən təməlləri qoyulan cənub təbii qaz koridoru layihəsinin həyata keçirilməsində də ingilislərin böyük yardımları olmuşdur. Bu layihə özündə 4 önəmli cəhəti əhatə edirdi. Birincisi 1999-cu ildə kəşf edilən operatorluğunu BP-nin həyata keçirdiyi Şahdəniz yatağının işlənməsi idi. İkincisi isə Azərbaycanla Gürcüstanı birləşdirən Cənubi Qafqaz təbii qaz xətti daha da genişlənəcəkdi. Digər iki ünsur isə

TAP və TANAP layihələrinin gerçəkləşdirilməsi idi. Trans Anadolu (TANAP) Gürcüstana çəkilən kəmərin Türkiyə sərhədləri ilə daşınmasını, Trans Adriatik (TAP) isə Azərbaycan qazının Türkiyədən Yunanıstana, Albaniyaya, oradan da Adriatik dənizi vasitəsilə İtalyaya çatdırılmasını hədəfləyir. Oradan isə Avropanın digər dövlətlərinə tankerlər vasitəsilə çatdırılacaqdır. 2017-ci ilin 14 sentyabrında yeni bir anlaşma ilə "Əsrin müqaviləsi"nin 2050-ci ilə qədər uzadılmasına qərar verilmişdir, bu da BP-nin 28 il daha ölkəmizdə fəaliyyət göstərəcəyi deməkdir. Günümüzə qədər energetika sahəsində davam edən yüksək səviyyəli ingilis-Azərbaycan əlaqələrinin uzun illər daha davam edəcəyini söyləmək olar [6, s.411-414].

İngiltərə-Azərbaycan münasibətlərinə nəzər saldıqda ölkələrarası yaxınlaşmanın özünü sadəcə siyasi-iqtisadi zəmində deyil, həmçinin sosial-mədəni əlaqələrdə də göstərdiyini demək mümkündür. Ümumiyyətlə mədəniyyət faktoru xarici siyasətdə qərarvermə prosesində önəmli rol oynamaqdadır. Buna görə də iki ölkə arasındakı sosial-mədəni münasibətlərin inkişaf etdirilməsinə, təhsil, mədəni və humanitar yardımların artırılmasına xüsusi diqqət yetirilməkdədir və bütün bunlar ölkələrarası qarşılıqlı inamın dərinləşməsinə xidmət edir. İqtisadi əlaqələrdə olduğu kimi İngiltərənin ölkəmizdəki sosial-mədəni layihələrinin də böyük qismi “British Petroleum” şirkəti tərəfindən maliyyələşdirməkdədir. BP bir çox layihələr həyata keçirməklə birlikdə bir sıra sosial yardımlara imza atmaqdadır. [4, s.70] Məsələn, BP-nin üzv olduğu ən böyük layihələrdən biri olan BTC neft boru xəttinin çəkildiyi bölgələrdə "Uşaqları qoruyaq" adlı sosial məqsədli layihələr gerçəkləşdirilməkdədir. Bu layihəyə təkcə ölkəmiz deyil, həmçinin boru kəmərinin keçdiyi Türkiyə və Gürcüstan da daxildir. Bundan başqa, “Gələcək Cəmiyyət Proqramı” da vardır ki, bu layihə çərçivəsində ölkədə maarifçiliyin və şəffaflığın bərqərar olmasına diqqət yetirilir, həmçinin korrupsiyaya qarşı mübarizə tədbirləri həyata keçirilir. Bununla belə, bu proqramların imkanları həm ərazi, həm də təsir gücü baxımından çox məhdud şəkildədir. Digər sosial layihəyə 2000-ci ildə BP/Statoil şirkəti ilə birgə ölkədə yerli biznes mühitinin yaxşılaşdırılması məqsədilə start verilmişdir. Ancaq bu layihə də 2004-cü ildə sonlanmışdır. 2006-cı ildə bir sıra mühüm layihələrə başlanmışdır ki,

onlardan biri də "İcma İnvestisiya Proqramı"dır. Bu proqram cəmiyyətlə şirkət arasında münasibətləri yaxşılaşdırmaq və investisiyaların daha çox sosial layihələrə yönəldilməsi məqsədi daşımaqda idi. Bu proqramın fəaliyyəti çərçivəsində görülən işlərdən biri də Bibi-Heybət torpağında elektrik avadanlıqları sisteminin yenidən qurulması məqsədi daşıyan 254 min dollarlıq layihənin həyata keçirilməsi idi. Eyni zamanda kənd təsərrüfatı, ətraf mühitin mühafizəsi, suyun təmizlənməsi sahəsində çoxlu layihələr həyata keçirilmişdir. Məktəblərin təmiri və yenidən qurulması layihələri də onun fəaliyyət sahəsinə daxildir

Azərbaycan Respublikası ilə Birləşmiş Krallıq arasında mədəni əlaqələrin əsası 23 fevral 1994-cü ildə Azərbaycan Prezidenti Heydər Əliyev və Böyük Britaniyanın Baş naziri Con Meycor tərəfindən imzalanmış "Təhsil, elm və mədəniyyət sahələrində əməkdaşlıq haqqında" sazişlə qoyulmuşdur. Bu müqavilə mədəni əlaqələrin inkişafı üçün zəruri hüquqi zəminin yaradılmasını təmin edir və hər iki ölkənin xalqları arasında təhsil, elm və mədəniyyət sahələrində əlaqələrin inkişafında mühüm rol oynayır. Eyni zamanda İngiltərənin digər ölkələrlə elmi və mədəni əlaqələrini inkişaf etdirən əsas qurumlardan biri olan "British Council" ölkəmizdə də fəaliyyət göstərir. Bu sazişin 14-cü maddəsinə əsasən, "British Council" Birləşmiş Krallıq və Azərbaycan Respublikası hökumətləri arasında təhsil və mədəniyyət sahələrində əsas vasitəçi rolunu öz üzərinə götürür. Təhsil Nazirliyi ilə bu qurum arasında əməkdaşlıqda müsbət irəliləyişlər 21 iyul 1998-ci ildə Heydər Əliyev və Böyük Britaniyanın Baş naziri olmuş Toni Bleyr tərəfindən imzalanmış birgə bəyannamədə də dəyərləndirilib. Bəyannamənin 10-cu maddəsinə əsasən, "Hər iki lider "British Council"ın Azərbaycanda ingilis dilinin tədrisi, təhsil, elm, texniki yardım və mədəniyyət sahələrində hərtərəfli fəaliyyətini yüksək qiymətləndirib"

Son illər İngiltərədə mədəniyyət sahəsində fəaliyyət göstərən azərbaycanlı qurumların sayı artmaqdadır. 1997-ci ildə yaradılmış Britaniya-Azərbaycan Assosiasiyası xüsusilə sosial və mədəni sahələrdə əlaqələrin inkişafı üçün geniş araşdırmalar aparır. Hazırda bu birliyin həmsədrləri azərbaycanlı professor Nərgiz Paşayeva və britaniyalı Kennet Forestdir. Assosiasiya Azərbaycan mədəniyyətinin və

incəsənətinin İngiltərədə təbliği ilə məşğul olmaqla yanaşı, gənc və uğurlu azərbaycanlıların burada işləməsinə köməklik göstərir. Xaricdə təhsil almaq istəyən azərbaycanlı tələbələr üçün əsas istiqamətlərdən biri kimi İngiltərə birinci yerdədir. Son məlumata görə, 2007-2015-ci illərdə dövlət təqaüd proqramı ilə xaricdə təhsil almış 1842 azərbaycanlı tələbədən 419-u Böyük Britaniya universitetlərində təhsil alıb. Azərbaycan gəncləri üçün ingilis dili ən vacib xarici dil hesab olunur. Yüzlərlə azərbaycanlı gənc ingilis dilini öyrənmək və təkmilləşdirmək üçün İngiltərədə müxtəlif kurslarda iştirak edir.

İngiltərədə fəaliyyət göstərən Azərbaycan mənşəli institutlar və tələbə birlikləri aşağıdakılardır:

- ✓ Avropa Azərbaycan Cəmiyyəti-TEAS
- ✓ Azərbaycan Evi
- ✓ London Azərbaycan Bazar Məktəbi (Caspian Khazri)
- ✓ SOAS - Azərbaycan Tələbə Birliyi
- ✓ Exeter - Azərbaycan Tələbə Birliyi
- ✓ UCL - Azərbaycan Cəmiyyəti
- ✓ Kembric Azərbaycan Cəmiyyəti
- ✓ Mançester Azərbaycan Cəmiyyəti
- ✓ Şeffild Azərbaycan Cəmiyyəti
- ✓ Aberdin Azərbaycan Cəmiyyəti
- ✓ Oksford Azərbaycan Cəmiyyəti

"Çevninq" təqaüd proqramı da mövcuddur ki, bu proqram İngiltərədə təhsil almaq istəyənlər üçün həyata keçirilir. Azərbaycanlı tələbələrin əksəriyyəti bu proqramdan faydalanır. İngiltərənin Britaniya Şurası Azərbaycan məktəblərində ingilis dilinin geniş yayılmasını həyata keçirən Təhsil Nazirliyinə yardım edir [7, s.89].

1991-ci ildə SSRİ-ni tərk edərək müstəqil xarici siyasət yeritməyə başlayan Azərbaycan düzgün addımlar atmalı, düzgün strategiya seçməli idi. Azərbaycanın ABŞ-dakı keçmiş səfiri Hafiz Paşayevin dediyi kimi, Azərbaycanın öz xarici siyasətini

Rusiyanın “Monro doktrinasının rus variantı” istəyinə uyğun qura bilmədiyi anlaşılırdı. Lakin Azərbaycan dostluq münasibətlərini də qoruyub saxlamağı bacardı. Regionun ən mühüm gücü olan Rusiya ilə birlikdə Azərbaycan öz müstəqilliyini təmin etmək üçün strateji manevrlər etməli idi. Bu səbəbdən Azərbaycan Qərb dövlətləri üçün enerji layihələrinə başlasa da, xüsusən İngiltərənin BP şirkəti ilə birlikdə Rusiya şirkətlərini də dəvət etmiş və eyni zamanda Bakı-Novorossiys neft kəmərinin çəkilməsinə razılıq vermişdi [6, s.406].

Hazırda Azərbaycan və İngiltərə arasında təhlükəsizlik əlaqələrinin əsasını enerji təhlükəsizliyi təşkil edir. Lakin bundan başqa, Azərbaycan, Avropa, xüsusilə İngiltərənin Orta Asiya dövlətlərinə çıxışı baxımından önəmlidir. Mərkəzi Asiya regionunun təhlükəsizlik problemləri və münaqişələri qlobal əhəmiyyət kəsb edir və narahatlıq doğurur. Azərbaycan qlobal təhlükəsizliyin təmin edilməsi və qorunması sahəsində beynəlxalq təşkilatlar çərçivəsində Böyük Britaniya ilə əməkdaşlıq edir. Məsələn, Azərbaycan Prezidenti İlham Əliyev 2016-cı il fevralın 4-də Londonda İngiltərə, Almaniya, Norveç və Küveytin birgə təşkil etdiyi “Suriya regionuna dəstək” konfransında iştirak etmiş və Suriya böhranının həlli üçün birgə fəaliyyətə çağırmışdır. Lakin Azərbaycan bu çağırışı edərkən öz təhlükəsizliyi baxımından heç bir tərəfə açıq-aşkar üstünlük və qərəzli mövqe nümayiş etdirməmişdir [6, s.414]. Bildiyimiz kimi, Suriyadakı böhranın əsas səbəblərindən biri regionda bir tərəfdə Qərb bloku, digər tərəfdə Rusiya olmaqla bir çox qlobal güclərin maraqlarının toqquşmasıdır.

Azərbaycan İngiltərə ilə təhlükəsizlik əlaqələrini əsasən beynəlxalq təşkilatlar çərçivəsində inkişaf etdirir, lakin bu sahədə də müəyyən problemlər var. Məsələn, ATƏT-in Azərbaycana qarşı silah embarqosu hələ də qüvvədə olduğu üçün Britaniya Azərbaycana silah sata bilməz və hərbi sahədə ikitərəfli əlaqələr qura bilməz. Bununla belə, təhlükəsizlik sahəsində ikitərəfli əlaqələr 2004-cü il avqustun 12-də imzalanmış “Azərbaycan və İngiltərə Müdafiə Nazirlikləri arasında müdafiə əlaqələri və əməkdaşlıq haqqında” Anlaşma Memorandumu çərçivəsində inkişaf edir. Bundan sonra iki ölkənin müdafiə nazirləri arasında daimi görüşlər keçirilir. 9 mart 2017-ci il tarixində Azərbaycan və İngiltərə Müdafiə Nazirlikləri arasında Baş Qərargah iclasları

keçirilmiş və iki ölkə arasında müdafiə sahəsində əməkdaşlıq, mövcud vəziyyət, gələcək perspektivlər müzakirə edilmiş, hərbi hazırlıq, sülh əməliyyatları üzrə birgə iş və regional təhlükəsizlik məsələləri müzakirə edilib. Görüşün nəticəsi olaraq "Azərbaycan və İngiltərə Müdafiə Nazirlikləri arasında 2017/2018-ci illər üçün Hərbi Əməkdaşlıq Planı" imzalanıb [56]. Azərbaycanın müdafiə naziri Zakir Hesenov ilə görüşən Böyük Britaniya Müdafiə Nazirliyinin Beynəlxalq Siyasət üzrə direktoru Nik Qurr 2016-cı ilin sentyabrında Londonda keçirilən ikitərəfli görüşdən sonra müdafiə sahəsində əməkdaşlığın dərinləşdiyini bildirib. O, həmçinin Azərbaycanın NATO-nun Əfqanıstan missiyasında iştirakını yüksək qiymətləndirib və hərbi-texniki sahədə əməkdaşlığın perspektivləri ilə bağlı məsələləri müzakirə edib [59]. Görüş zamanı imzalanmış plan çərçivəsində 12 iyun 2017-ci il tarixində Silahlı Qüvvələrin Təlim və Təlim Mərkəzində Böyük Britaniya Ordusu ilə Azərbaycan Hərbi Orkestrinin birgə çıxışı olmuşdur. Azərbaycan və Böyük Britaniya Müdafiə Nazirlikləri [60].

Azərbaycan 1994-cü il mayın 4-də NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" Proqramına (BOP) qoşulub və 3 il sonra Azərbaycan Prezidentinin sərəncamı ilə NATO ilə əməkdaşlığı inkişaf etdirmək üçün Dövlət Komissiyası yaradılıb. Azərbaycanın NATO ilə fərdi tərəfdaşlığına dair sənəd 2004-cü il mayın 19-da NATO-nun baş katibi Y.Sxefferə təqdim edilmiş, 27 may 2005-ci ildə isə Azərbaycan rəsmi olaraq NATO ilə fərdi əməkdaşlıq proqramına qəbul edilmişdir. NATO ilə əməkdaşlıq bir neçə istiqamətdə inkişaf etdirilir. İlk növbədə Azərbaycan əsgərləri üçün təlim-tədris kursları təşkil edilir ki, bu kurslarda ingilis hərbi mütəxəssislərinin xüsusi köməklik göstərdiyini deyə bilərik. Bundan əlavə, NATO ekspertləri Azərbaycan ərazisində hərbi təlimlər keçirirlər, məsələn, 2016-cı il oktyabrın 20-də belə bir təlim keçirilib. Hətta Azərbaycanın Əli Hərbi Məktəbində NATO Kafedrası da var. Bundan əlavə, Azərbaycan NATO çərçivəsində qlobal sülh əməliyyatlarında iştirak edir. İlk dəfə 1999-cu ildə Azərbaycanın 34 nəfərlik hərbi qrupu NATO-nun Kosovo əməliyyatında iştirak edib. 2008-ci ilə qədər Kosovo əməliyyatlarında ümumilikdə 362 azərbaycanlı var idi. Daha sonra Azərbaycan əsgərləri 2003-2008-ci illərdə NATO-nun İraq əməliyyatlarında çalışıblar. Bu müddət ərzində İraq əməliyyatlarında

ümumilikdə 151 azərbaycanlı iştirak edib. 2002-ci ildən bu günə kimi Azərbaycanın 23 əsgəri NATO-nun Əfqanıstandakı əməliyyatlarında çalışır. Azərbaycan əsgərləri xüsusilə Kabil Beynəlxalq Hava Limanının mühafizəsini həyata keçirirlər [57]. Bundan əlavə, qlobal, regional və milli təhlükəsizliyə təhdidlərin, xüsusən də kütləvi qırğın silahlarının, yalan informasiya axınının, vandalizmin və terrorizmin sürətli inkişafının yaşandığı bir vaxtda Azərbaycan ilə İngiltərə arasında terrorizmlə mübarizə sahəsində əməkdaşlıq dərinləşir.

Azərbaycanın ən mühüm təhlükəsizlik problemlərindən biri də Dağlıq Qarabağla bağlı idi. 2020-ci ildə II Dağlıq Qarabağ müharibəsindən sonra status-kvo dəyişmiş olsa belə, bu baxımdan İngiltərə Azərbaycanın mövqeyini dəstəkləmişdir. Bu mövqe Britaniya hökumətinin nümayəndələri və parlament üzvləri tərəfindən dəfələrlə bəyan edilmişdir [1, s.68]. Bundan əlavə, Böyük Britaniya Dağlıq Qarabağ problemi və qaçqınlar məsələsinə xüsusi diqqət yetirmiş və hər zaman ölkəmizin torpaq bütünlüyünü dəstəklədiyini bildirmişdir.

## 1.2. Böyük Britaniya mətbuatının səciyyəvi xüsusiyyətləri

Birləşmiş Krallıq mətbuatı dünyada ən çox hörmətə sahib və oxunan milli mətbuatlardan biri kimi tanınır. Bryan Makneyrə (1999) görə İngiltərədə böyüklərin 80%-i mütləq hər gün olmasa da, müntəzəm olaraq ən azı bir milli gündəlik qəzet, 75% isə bazar günü nəşrini oxumaqdadır. Son dövrlərdə meydana gəlmiş "spin media" anlayışına, yəni hökumətlərin medianı "fırlatmaq" qabiliyyətinin artması təhlükəsinə baxmayaraq Britaniya mətbuatı dünyada ən azad və müxtəlif mətbuatlardan biri olaraq qalmaqdadır. Ölkədə əsasən milli gündəlik qəzetlərin əsas başlıqları səhər, yerli gündəlik qəzetləri isə axşam çıxarılır.

- *İngilis mətbuatının tarixi inkişafı*

İngiltərənin "corantos" adlanan ilk dövrü xəbər nəşrləri 1620-ci illərdə yayılmışdır. Sonrakı müddətdə isə əsasən cəmiyyətdə mətbuat azadlığı kimi anlayışlar

özünü göstərmiş və mətbuatın gələcəyin mümkün tiranlarına qarşı azadlığın dayağı olması kimi təsəvvürlər yayılmağa başlamışdır. Bu təsəvvürlər bir neçə əsr ərzində reform hərəkatlarını ruhlandırmağa kömək olmuş və zamanla mətbuat üzərindəki dövlət təzyiqinin aradan qalxmasına səbəb olmuşdur. İngiltərə mətbuatının inkişafına təkan verən ən vacib addımlardan bəzilərinə 1694-cü il nəşr öncəsi senzuranı aradan qaldıran qanunu, 1792-ci ildəki "Foksun Böhtan Aktı"nı (Fox's Libel Act), daha sonra isə 1853-1861-ci illərdə mövcud olmuş "Biliyə vergilər" (Taxes on Knowledge) adlanan kağız, reklam ve qəzet markası vergilərinin ləğvini göstərmək olar. 1830-cu illərdən etibarən bir sıra nüfuzlu kampaniyalardan sonra həyata keçirilən islahatlarla mətbuat artıq XX əsrin əvvəllərində özünün dövlətdən ayrı müstəqilliyini inkişaf etdirməyə və çiçəklənməyə nail olmuşdu.

XIX əsrdə əsasən gündəlik qəzetlərin məzmunu parlament müzakirələri və ya görkəmli dövlət xadimlərinin çıxışları haqqında 4-8 səhifəlik sıx çap olunmuş sütunlar şəkildəki sözbəsöz məruzələrdən ibarət idi. "London Times" həmin əsrin ortalarında ən nüfuzlu qəzet hesab olunurdu. "Biliyə vergilər"lə əyalət mətbuatında çiçəklənmə baş vermiş, "Manchester Guardian", "Yorkshire Post" kimi köhnə qəzetlərə yeni başlıqlar əlavə olunmuşdur. Bəzilərinə görə Britaniya mətbuatında "qızıl dövr" adlanan müddət ərzində "Morning Post" və yeni “Daily Telegraph" kimi London qəzetləri ilə yanaşı, daha populyar olan "Reynolds News" və "Lloyd's Weekly News" kimi bazar günü nəşrləri də fəaliyyət göstərirdi. Ümumiyyətlə, XIX əsr ərzində hər bir qəzet tərəfdarı olduğu hər hansı bir hərəkatın müdafiəsini şərəf nişanı hesab edirdi. Bu cür kontekst 1840-cı illərdə radikal fəhlə sinifi olan Çartist hərəkatının "Northern Star" qəzetindən tutmuş, "The Times"a qədər əksər qəzetlər üçün xarakterik idi.

Sonrakı onilliklərdə əhalinin artan savadlılıq nisbətlərini stimullaşdırmaq üçün qəzet redaktorları daha çox oxuyucuya xitab edən başlıqlar, illisturasiyalar, müsahibələr insanların maraq dairəsini əhatə edən hekayələrə yer verməyə başladılar. Artıq qəzetləri əhatə edən hər hansı "baxış" xəbərlərlə, sütunlar isə paraqraflarla əvəz olundu. Bu dəyişikliklər paralel olaraq Amerika mətbuatında da müşahidə olunurdu. Və əlbəttə ki, bu proses ərzində dəyişikliklərin müdafiəçi və tənqidçiləri də yaranmışdı.

Müdafiəçiləri bütün bu prosesin oxucuya parlamentdən kənar dünyanı dərk etmək şəraiti yaratdığını, eyni zamanda mətbuatı daha da demokratikləşdirdiyini söyləyirdilər. Tənqidçilər isə mətbuatın maarifləndirici rolunu itirdiyini vurğulayır və "yeni jurnalistika"nın səbəb ola biləcəyi sosial nəticələrindən qorxurdular [9].

Həmin əsrdə qəzetlərlə yanaşı "günün sualları"nın yer aldığı "Edinburgh Review" və "Fortnightly Review", həmçinin, əyləncə başlıqları ilə tanınan "Sporting Magazine" kimi jurnallardan tutmuş "Lancet" (tibbi jurnal) və ya "English Historical Review" kimi peşəkar jurnallara qədər artan və təkmilləşən dövri nəşrlər toplusu mövcud idi.

Vaxt keçdikdə aydın oldu ki, mətbuat düzgün və lazımlı şəkildə istifadə olunduğu təqdirdə kifayət qədər gəlirli ola bilər. Xüsusilə XIX əsrin II yarısında istehlakçılığın inkişafı ilə reklamlar mətbuat üçün əhəmiyyətli gəlir mənbəyinə çevrildi. Bununla birlikdə, yüksək tirajlara nail olmaq qəzetlər üçün əhəmiyyətini artırdı.

Günümüzdə müasir populyar mətbuatın başlanğıcını 1896-cı ildə "Daily Mail"in əsasını qoyan Alfred Harmsvorzla əlaqələndirirlər. Boer müharibəsi (1899-1902) illərində digərlərinin yarı qiymətinə satan bu qəzet gündəlik 1 milyon tiraja nail olmaqla bir ilkə imza atmışdı. Harmsvorz 1903-cü ildə fəaliyyətə başlayan “Daily Mirror” da daxil olmaqla bir sıra qəzetlərin də banisi hesab olunur. İlk olaraq qadınlar üçün nəzərdə tutulan bu qəzet daha sonra 1904-cü ildə kontekstini kütləvi bazar xəbərləri çevirdi və o dönəmdə I dünya müharibəsinin başlaması ilə də tirajlarını 1,2 milyona çatdırmağa nail olmuşdu. 1905-ci ildə “Lord Norzkliff” kimi ad qazanan Harmsvorz 1908-də “The Times” qəzetini alması ilə özünün “Qəzet imperiyası” nı qurmuş oldu. Artıq “mətbuat baronu” ləqəbi ilə tanınan Harmsvorz öz imperiyasından hökümət üzərində təsirə sahib olmaq üçün istifadə etməyə başlamışdı. Məsələn, 1916-cı ildə Askuiz hökumətini devirməyə nail olmuşdu. O, siyasi maraqları ilə yanaşı eyni zamanda satışlarını artırmaq üçün ağıllı addımlar atan mükəmməl biznesmen olmuşdur.

XX əsrin ilk üç onilliyində Britanya mətbuatı az sayda mərkəzə cəmlənmiş halda idi. 1922-ci ildə Lord Norzkliffin ölümü ilə isə mətbuatın idarəsi dörd adamın əlinə keçmiş oldu: Lord Bever-bruk, Lord Rozermer (Norzkliffin qardaşı), Qamer Beri (Lord Kemsli) və Uilliam Beri (Lord Kamros). 1930-cu illərdə ingilis mətbuatı üçün "tiraj müharibələri" və kommersiyalaşmanın artması xarakterik idi. "Daily Mail" və "Daily Express" kimi qəzetlər abunəçilərinin sayını artırmaq üçün vətəndaşlara sığorta təklif edirdilər, hətta 1928-ci ilə qədər buna 1 milyon paund xərclənmişdi. Daha sonra bu rəqabətə "Daily Herald" da qoşulmuşdu. Bu üçlüyün mübarizəsi zamanla abunəçilik üçün flanel şalvar, fotoaparat, çaydan, əl çantaları, çay dəstləri vəs. kimi hədiyyələrlə qapı-qapı gəzərək insanları şirnikləndirməyə çevrilmişdi. 1934-cü ildə bu "şirnikləndirmə" işçilərinin sayı bütün mətbuat işçilərinin 40 %-i təşkil edirdi. Bütün bu rüşvətlə tiraj qazanmaq cəhdləri artıq reklamın qəzetlər üçün necə əhəmiyyətli bir gəlir qaynağı olduğunu göstərirdi. Qəzet sahibləri də reklam verənləri razı salmaq üçün mümkün ola biləcək ən yüksək tirajlara sahib olmağa çalışırdılar [18].

- *Ən nüfuzlu ingilis qəzet və yayım şirkətləri*

1. *“The Times”*

Bu qəzet XIX əsrin əvvəllərindən etibarən ən nüfuzlu Britaniya qəzeti hesab olunur. XIX əsr ərzində, xüsusilə də Krım müharibəsi (1854-56) zamanı müstəqilliyi, doğruluğu və duruşu ilə şöhrəti artmış, "The Thunderer" (Şimşək çaxan) ləqəbini qazanmışdı. "The Times" hər hansı bir qəzetdən daha çox İngiltərə cəmiyyəti üçün milli bir qurum hesab edilə bilər. Buna görə də onun 1981-ci ildə Murdochun? çoxmillətli konqlomeratının əlinə keçməsi ölkədə bir çoxlarını narahat etmişdi. Ancaq yenə də əksər dairələrdə yüksək reputasiyaya malikdir. 1980-ci illər ərzində sağa meyilli baxışa sahib olmasına baxmayaraq, 90-cı illərdən imgilis hökümətini daha çox tənqid etməyə başlamışdır. Qəzet 1997-də isə Toni Bleyri dəstəkləmişdi və çoxları bunun kommersiya məqsədi ilə edildiyini düşünürdü.

2. *"Daily Telegraph"*

1855-ci ildə möhür vergisinin ləğvindən sonra əsası qoyulan "Daily Telegraph" idman və siyasət qarışığı bənzərsiz xəbər xidməti ilə qısa müddətdə İngiltərənin ən çox satılan qəzeti ünvanına sahib olmuşdur. 20-ci əsrin əvvəllərinə qədər olan müddətdə tənəzzülə keçməsinə baxmayaraq, 1930-larda yenidən mətbuatda lider kimi ortaya çıxmış və bu mövqeyini 2000-ci illərin əvvəllərinə qədər qoruyub saxlaya bilmişdir. Ən parlaq dövrünü 1960-cı illərdə yaşayan bu qəzet Konrad Bleykə məxsusdur. Mühafizəkar siyasətilə seçildiyinə görə ona çox vaxt "Torygraph" deyilir. Oxucuları artıq qocalmaqda olsa da, tarixdə 1 milyondan çox tiraj əldə edən yeganə ingilis gündəlik nəşr idi.

3. *"The Guardian"*

İlk olaraq 1821-ci ildə "The Mamchester Guardian" adı ilə fəaliyyətə başlayan bu ingilis gündəlik qəzeti Skott Trast tərəfindən qurulmuşdur. Hazırkı adını isə 1959-cu ildə almışdır. "The Observer" və "The Guardian Weekly" qardaş qəzetləri ilə birlikdə "The Guardian Media Group"u təşkil etməkdədir. Qəzet siyasi nöqteyi-nəzərdən, xüsusilə sol qanada yaxın olan oxuyucuların diqqət mərkəzindədir. Məzmununda yer olan məqalələrin əksəriyyəti liberal və sol qanad arasında dəyişən siyasi baxışları əks etdirməkdədir. Qəzetin həmçinin “Guard Unlimited” adlı ve saytı mövcuddur və böyük baxış sayına malikdir. "The Guardian" 1996 və 2006-cı illərdə keçirilən "British Press Awards" tərəfindən "ilin milli qəzeti" mükafatına da layiq görülmüşdür.

4. *"BBC News"*

Britaniya yayım kooperasiyası və ya BBC (British Broadcasting Corporation) olaraq bilinən beynəlxalq yayım quruluşu Britaniya kraliyyətinin himayəsindədir və maliyyə dəstəyi ilə fəaliyyət göstərməkdədir. Mərkəzi Londonda yerləşən bu quruluş fəaliyyətə başladığı illərdən 1954-cü ilə qədər televiziya, 1972-ci ilə qədər isə radio yayımları sahəsində öz inhisarçılığını qoruyub saxlaya bilmişdir.

İngiltərə radio yayımlarında Birinci dünya müharibəsindən sonra daha çox ticarət firmaları ön plana çıxmaqda idi. 1922-də "British Broadcasting Company" olaraq qurulan özəl şirkət 1927-ci ildə müasir adı ilə ictimai kooperasiya olaraq dəyişdirildi. BBC parlamentə qarşı məsuliyyət daşısa da, ancaq eyni zamanda fəaliyyətini müstəqil şəkildə yeritməkdədir. Həmçinin kooperasiyanın idarə heyəti Birləşmiş Krallıq hakimiyyəti tərəfindən təyin edilir. 1927-1938-ci illərdə "BBC"nin baş direktoru vəzifəsini həyata keçirən Con Reizin (Lord Reiz) ilk illərində önəmli bir irəliləyiş olaraq İngiltərə imperiyası ərazisində qısa dalğa yayımlara başlanmışdır. 1936-cı ildə isə televiziya yayımlarının təkmilləşdirilməsi sahəsində çalışmışdır. Reith işini ictimai xidmət olaraq gördüyünə görə İngiltərədə böyük rəğbətlə qarşılanmışdı.

İkinci dünya müharibəsinin başlanması ilə televiziya yayımları dayandırılmışdı. 1946-cı ildə fəaliyyətə qaldığı yerdən davam etdi. BBC Avropada ilk dəfə rəngli televiziya yayımları başlatmaqla bir ilkə imza atmışdı. Onun inhisarçılığı 1954-cü ilə qədər televiziya sahəsində davam etdi. Radio sahəsindəki təkliyi isə hökümətin 1970-ci ildən başlayaraq kommersiya yayımlarına icazə verməsiylə sona çatdı.

BBC digər quruluşlardan fərqli olaraq reklam və ya maliyyələşməsi başqaları tərəfindən qarşılanan proqramları yayımlaya bilməz. Həmçinin hökümət siyasəti və gündəlik problemlərlə bağlı öz düşüncələrini açıqlamaqdan çəkinməli, neytral davranmağa məcburdur [55].

- *İngilis mətbuatının siyasətlə qarşılıqlı əlaqəsi*

Britaniyada mətbuat sektoru hökümətin ictimaiyyəti idarə etmək üçün istifadə etdiyi mexanizmin önəmli bir parçası hesab olunur. Halbuki bir sıra ölkələrdə mətbuat hökümət əleyhinə fəaliyyət də həyata keçirə bilər. Günümüzdə medianın, onun bir parçası olan mətbuatın ingilis siyasətinə təsiri gözlə görünən bir faktdır. Ancaq media və siyasətin qarşılıqlı təsiri ilk öncə siyasətçilərin mətbuata ehtiyac duyması ilə başlanmışdır. Siyasətçilər jurnalistləri onlar üçün mükəmməl bir siyasi imic formalaşdıran bir vasitə kimi, bir növ "spin doctors" olaraq görürlər. Siyasi

jurnalistikada bu "spin" fenomeni Toni Bleyr liderliyində Yeni İşçi partiyasının İngiltərə seçimlərini qazanmasınıdan sonra özünü göstərmişdir. Bu hadisə media və siyasətin bir-birinə müraciət etdiyi və bunun gerçəkləşdiyi vəziyyətin bir nəticəsidir. Bilavasitə, hər hansı bir siyasi şəxs və ya partiyanın idarə etmə qabiliyyəti onun media ilə əlaqələrindən və necə istifadə etdiyindən asılıdır. Düzdür, bir sıra jurnalistlər "spin" fenomeni altında baş verən sui-istifadədən narazı olsalar da, bu müasir dövrün tələbi hesab olunur və informasiya texnologiyalarının həyatımıza hərtərəfli təsirinin göstəricisidir.

Əsasən rəsmilər hər hansı sosial problemlə üzləşdikləri zaman dərhal buna reaksiya verməyə çalışırlar. İlk olaraq rəsmi bir açıqlama və ya nazirliyi yayımı edərək hadisəyə aydınlıq gətirirlər. Lakin zamanla bu sahədə siyasi jurnalistlərin də köməyinin daha effektli ola biləcəği anlaşıldı. Siyasətçilərlə əlaqələr zamanı bir sıra siyasi sirlər, hətta şəxsi həyatla bağlı məlumatların əldə olunması onlar üçün "düzgün bir siyasi imicin formalaşdırılması" prosesində jurnalistlərin işini daha da asanlaşdırdı. Bu fəaliyyət hökümətlə xalq arasındakı əlaqələri formalaşdıran mexanizmin bir hissəsi - "imic idarəetməsi" adlanır. Özəlliklə, son dövrlərdə cəmiyyətin siyasi olsun və ya olmasın, göz önündə olan məşhurların şəxsi həyatı, gündəlik yaşamı ilə bağlı artan marağı düzgün imicin formalaşdırılmasının əhəmiyyətini daha da ön plana çıxarmışdır [36].

Ancaq mətbuat və hökümət zamanla ictimaiyyətlə əlaqələr sahəsində anlaşmazlığa düşdülər. Belə ki, siyasətçilər mətbuatdan istifadə edərək xalq tərəfindən rəğbət qazanmağa nail oldular, ancaq jurnalistlərin yayımlamaq istədikləri bir sıra məlumatlar onları narahat etdi. Bu xəbərlər daha çox siyasətçilərin şəxsi həyatları ilə əlaqəli idi. Jurnalistlərin belə tərz xəbərləri yayımlamaq istəklərinin səbəbi sadə insanların medianın siyasətçilər üçün yaratdığı "mükəmməl imic"dən sıxılmaları və artıq verilən məlumatlara qarşı güvənlərinin azalması idi. Nəticədə satış və baxış saylarında azalmalar yaşanmışdı. Buna görə də artıq jurnalistlərin diqqət mərkəzi siyasətçilərin skandalları olmuşdu. Britaniyada televiziya və radio millətin mülkiyyətində olmasına baxmayaraq, bu qəzetlər üçün keçərli deyildir. Bu o deməkdir

ki, qəzetlər öz siyasi baxış və fikirlərini söyləməkdə, xalqa çatdırmaqda bağımsızdırlar. Bu məsələ ilə bağlı hesabatlar göstərir ki, daha çox siyasətçilərin skandalları ilə maraqlanan qəzetlərin satış və baxış sayları digərlərindən yüksəkdir. Bu da ictimaiyyətin həqiqətən də siyasətçilərin şəxsi həyatları haqqında daha çox məlumat əldə etməyi sevdiyini doğrulayır. Bu da medyanın daha çox baxış sayı əldə etmək üçün belə xəbərlərə üstünlük verməsi ilə nəticələndi. Məsələn, İngiltərə kraliyyət ailəsinin gəlini şəhzadə Diana media tərəfindən həddindən artıq təziqlərə məruz qalmışdı. Utancaq xasiyyətə sahib olduğundan cəmiyyət qarşısında nitqini yaxşılaşdırmaq üçün diksiya dərsləri almışdı, bu dərslərin müsbət nəticə verməsi ilə bərabər o, həmçinin, xalqın təqdirini də qazanmışdı. Lakin həm Diananın səs gətirən ölümü, həm də "BBC" nin yayınladığı "Diana: Öz sözləri ilə" sənədli filmi kraliyyət ailəsi üzərində mənfi təsirlərə səbəb olmuşdu.

Bəzən dövlətin siyasi vəziyyəti hər hansı media qrupunun üstünlük verdiyi baxışı dəyişdirə bilər. Məsələn, "The Sun" İşçi Partiyasının dəstəyi ilə tanınan bir qəzet idi. Ancaq qəzet sahibi mətbuatın seçkilərə heç bir təsir gücü olmadığını düşündüyü üçün Mühafizəkar Partiyanı dəstəkləməyə başladı. Və 1979-cu il seçkilərini Com Maycor rəhbərliyindəki Mühafizəkarlar partiyası qazanaraq 1997-ci ilə qədər 18 il boyunca hakimiyyətdə qaldı. Məhz həmin 1997-də "The Sun" dəstəyini yenidən İşçi partiyasına yönəltmişdi. "The Sun backs Bleyr" başlıqlı qəzetlər minlərlə oxucunun dəstəyini İşçi partiyasının lideri Toni Bleyrə doğru dəyişdirdi və və gələn qələbə ilə "Bleyr illəri" başladı. Bəzi araşdırmalar "The Sun" qəzetinin seçkilərə təsir gücünün maksimum 2% ola biləcəyini göstərsə də, bu faiz belə parlament seçkilərində hər hansı partiyaya üstünlük sağlaya bilər [31].

Müasir dövrdə sosial media siyasi xarakterli xəbərlərin yayılmasında vacib bir vasitə hesab olunur. İngilis vətəndaşların siyasi məlumat əldə etmə yolları daha çox televiziya, radio, qəzet və sosial media vasitəsilə həyata keçməkdədir. Sosial media ictimai həyatda artıq əvvəlkindən daha geniş yer tutduğundan siyasətçilər xalqın fikirlərini analiz etmək üçün bu sahəni artıq daha diqqətlə izləyirlər. Son zamanlarda siyasətçilərin sosial media hesabları təhlil edilərək onların seçkilərdəki mümkün

nəticələri təxmin edilməyə çalışılır. Twitter və Facebook-da paylaşılanlar hamıya açıq olduğu və insanlar burada sərbəst şəkildə öz fikirlərini bildirmək imkanı qazandığı üçün bu kiber məkan əlverişli bir mənbə hesab olunur. Həmçinin, bu məkan sayəsində siyasi məsələlər hamı tərəfindən ortaq müzakirə mövzusuna çevrilir, buna görə də hökümət ictimai nəbzi ölçmək üçün sosial medianı necə istifadə edəcəyini dəqiqliklə düşünməsi və qərar verməsi vacibdir. Twitter araşdırma nəticələrinə görə seçicilərin 47%-i (18-34 yaş) saytdan aldıqları məlumatlar ilə öz fikirlərini dəyişdirməyə qərar vermişlər. Mətbuat və hökümətin qarşılıqlı münasibətləri həssas olmaqla bərabər dəyişkənlik göstərməkdədir.

- *İngilis mətbuatının ümumi keyfiyyəti*

XX əsrdə dünyada gedən iqtisadi dəyişikliklərin təsiri nəticəsində mətbuatda da gedərək artan kommersiyalaşma mövcud idi. O dövrdə də ingilis mətbuatının inkişafında XIX əsrdən qalma ənənələr ilə özünü göstərən kommersiyalaşma arasında toqquşma yaşandı. Britaniyada milli mətbuat əsasən üç kataqoriya əsasında formalaşmışdır. Bu kataqoriyaları "The Times", "Guardian", "Independent", "Daily Telegraph" və "Financial Times"ın daxil olduğu və geniş səhifə formatında hazırlanan yüksək keyfiyyətli mətbuat bazarı, daha sonra "Daily Mail" və "Daily Express"dən ibarət orta səviyyəli bazar və nəhayət tabloid formatında yayımlanan kütlə bazarı (Daily Mirror, The Sun) təşkil edir. Bunlarla yanaşı həmin qəzetlərin həftəsonu nəşrləri də mövcuddur. (Observer Sunday Times, İndependent on Sunday, Sunday Telegraph, Sunday Express, Mail on Sunday, News of the world, People Mirror). 1995-ci ildə verilənləri günlük qəzet satışlarının 20%-nin yüksək keyfiyyətli, 27%-nin orta, 53%-nin isə kütləvi bazara məxsus olduğunu göstərmişdir. Habelə bazar günü nəşrlərinin satışları da bu göstəricilərlə paralel olaraq irəliləyirdi. Ancaq həmin əsrin birinci yarısında satışlardakı vəziyyət daha fərqli idi. 1937-ci ildə satışların 8%-i yüksək, 72%-i orta, 20%-i kütlə bazarı şəklində baş verirdi.

Bu qəzetlər təkcə oxucu sayları ilə deyil, həmçinin, qiymət, həcm və kontekst aspektində də bir-birindən fərqlənirdilər (ən bahalı - "Financial Times" 1 pound, ən

ucuz - "The Sun" 40 peny). Səhifə sayı olaraq əsasən tabloidlər və geniş səhifə qəzetləri eyni olsada, orta bazarın qəzetləri daha çox səhifə sayına malikdirlər. Ancaq digər bir fakt da mövcuddur ki, geniş səhifə qəzetləri tabloidlərdən 3 dəfə çox söz həcminə sahibdirlər [18].

Ancaq bazarları bir-birindən fərqləndirən ən böyük xüsusiyyət həcmlərindən daha çox onların məzmunudur. Geniş səhifə keyfiyyətli mətbuat qəzetləri kontekstlərində tabloidlərə görə daha sıx siyasətlə bağlı məsələlərə toxunurlar. Aşağı bazar tabloidlərin isə diqqət mərkəzində daha "yumşaq" xəbərlər, əyləncə başlıqları və məşhurların şəxsi həyatı ilə bağlı hekayələr durur. Buna görə də tabloid xəbərlərinin çoxu idman, televiziya, şov dünyası, cinayət ve sensasiyalı əhvalatlardan ibarətdir. Bu cür qəzetlərin xəbər tərzi şəxsiyyətə yönəlmiş təzyiq və ya tənqidlərlə həyata keçirilir. Onu təşkil edən materiallarda "baxış" üçün daha diqqət çəkici elementlərdən - böyük başlıqlar, çoxlu şəkillər, reklamlardan istifadə olunur. Yüksək səviyyəli mətbuatdakı əksər hekayələrin həcmi 800 sözdən çox olduğu halda tabloidlərdə bu rəqəm 400-dən aşağıdır.

XX əsrin başlarına gəldikdə insanlar qəzetlərdə artıq daha az sıxlıqda siyasi xəbərlər görməyə başladılar. Bir çox tənqidçilər bunun səbəbinin populyar mətbuatın mövcud status-kvonu pozmamaq və dəstəkləmək üçün etdiyini iddia edirdilər.

Mətbuatda artıq sensasiya yaratmaq yeni bir fenomen olmamasına baxmayaraq, 1970-1980 ci illərə gəldikdə tabloidlərin, xüsusilə “Murdoch's Sun and News of the world” şüurlu şəkildə daha da aşağı səviyyəli xəbərlərə yer verməyə başladılar. Hətta bu dövrdə tabloid qəzetlər sensasiyalı xəbərlər haqqında daha ətraflı məlumatlar almaq üçün "etik olmayan" qaynaqlarla əlaqə saxlamağa çalışırdılar. Misal üçün, "Yorkshire Ripper" adı ilə məşhurlaşan serialı qatilin həyatı haqqında daha çox bilgi əldə etmək üçün həyat yoldaşına təzminat ödənilmişdi və bu məbləğ qatilin qurbanlarının ailəsinə ödəniləndən daha yüksək idi. Bunlara əlavə olaraq, tabloidlərin üçüncü səhifə xəbərlərində daha çox böyüklər üçün xəbərlərə yer verilməsi tənqidlərə səbəb olurdu. Tənqidçiləri çəkən digər bir xüsusiyyət uydurma və invaziyaçı xəbərçiliyə əl atmaları

idi. (qeyri-leqal şəkildə siyasətçi və məşhurların zibil qutularını axtarmaq, xüsusi mülkiyyətdə gizli şəkillər çəkmək, hətta əxlaqa uyğun olmayan yollarla bir sıra tələlər qurmaq vəs.)

İlk başlarda satışların artması bu tendensiyaları qızışdırdı. Ancaq 1990-ların əvvəllərində bir çox oxuyucu bu cür ekstremist hərəkətlərdən getdikcə narahat olmağa başladılar. Şəhzadə Diananın avtomobil qəzasında həyatını itirməsində paparassilərin də payının olduğu düşüncələri narahatlığı daha da gücləndirdi. Artıq XX yüzilliyin başlarında tabloid araşdırmaları daha az aqressiv hal almağa başladı. Əsrin sonlarında isə habelə tabloidlərin satışların azalması ilə qiymətlərində ucuzlaşma görülmüşdü. Məsələn, bu səbəbdən "Daily Mirror" daha çox siyasi kontekstdə yer verərək orta mətbuat bazarında yer tutmağa çalışırdı.

XIX əsrin sonlarından etibarən jurnalistikanın profisonalaşmasına baxmayaraq İngiltərə qəzetləri açıq şəkildə partiya tərəfdaşlığına davam edirdilər. Bu kimi hallar ABŞ mətbuatında qəbuledilməz hesab olunduğu halda ingilislər bu ənənələri öz mətbuatlarında qorumağa çalışırdılar. II dünya müharibəsindən sonrakı dövrdən günümüzə qədər keçən müddətin böyük hissəsində milli qəzetlərin əksəriyyəti Mühafizəkar partiyanı dəstəkləməkdədir. 1990-cı illərin ortalarından sonra isə dəyişiklik baş vermiş, qəzetlər şüurlu şəkildə dəstəyini İşçi partiyası rəhbəri Toni Bleyrə yönəltmişdilər. Bu yüksək səviyyəli partizanlığa rəğmən yenə də ingilis mətbuatı dünya üzərində xüsusi hörmətə sahibdir.

Bəzi tənqidçilərə görə geniş səhifə qəzetlərinin də öz qüsurları mövcuddur. Onlar yüksək səviyyəli mətbuatda yer alan parlament hesabatları kimi materialların "maqazinləşmiş" hekayələrlə əvəzlənməsindən narahatdırlar. Eyni şəxsə məxsus "The Times", "Daily Telegraph", "Guardian" və "Financial Times" kimi yüksək səviyyəli mətbuat qəzetlərində parlament hesabatlarının həcminin 1946 və 1996-cı illər arasında gözlə görünən şəkildə təxminən 70 faizə yaxın azaldığı müşahidə olunmuşdur. Bu dəyişikliyin tərəfdarları 2000-ci illərdən etibarən məclis məhkəmələrinin televiziyalarda yayımlanması, eyni zamanda bir sıra məhkəmə rekordlarının internetdə

belə mövcud olması səbəbindən jurnalistlərin artık bu materialları əks etdirmək kimi bir rola ehtiyacı olmadığını söyləyirdilər [ 21, s.213-231].

Həmçinin bu tabloidləşməyə əlavə olaraq tənqidçilər ingilis mətbuatının ABŞ-dakı qədər doğruluk standartlarına çatmadığını vurğulayırlar. Hətta George Kennedy "Columbia Journalism Review"da ABŞ telekomunikasiya servisi "Associated Press"in "ingilis qəzetlərindən düzgün və obyektivliyi təsdiqlənmədiyi təqdirdə hər hansı bir materialı almaqda tərəddüdlü olduğunu" söyləmişdir. Habelə, İngiltərədə televiziyaya duyulan etimad ABŞ-la paralel olduğu halda, mətbuata olan inam Avropa İttifaqı ortalamasına görə zəifdir. (Britaniyada mətbuata göstərilən etimadın zəifliyi 40 %-dən çox, Birləşmiş Ştatlarda isə 20 %-dir.)

- *Qanunların ingilis mətbuatına təsiri*

Təbii olaraq jurnalistlərin mətbuata dövlət müdaxiləsinə qarşı ənənəvi düşmənçiliyi və hər hansı bir müdaxilənin senzura yol açma ehtimalı səbəbindən İngiltərədə tənzimləyici qanunlar məhduddur. Lakin XX əsrin sonlarında ictimaiyyətin jurnalistlərə olan etimadının azalması ilə məxfilik qanunlarının qəbul edilməsi ilə bağlı təzyiqlər yaranmışdı. Mətbuat isə hər hansı mümkün dövlət müdaxiləsindən yayınmaq üçün "Mətbuat Şikayət Komisiyası"nı yaratmağa qərar verdi.

1991-ci ildə qurulan bu komissiya 1947-ci ildə yaradılmış Kraliyyət Mətbuat Şurasını əvəzləmişdi. Bu mexanizma mətbuatın azalan standartları və inhisarçı tendensiyaların qarşısını almaq məqsədi ilə qurulmuşdu. 1980-lərdə Şuranın fəaliyyəti keçərsiz hesab edilirdi. Üzvlərinin çoxunun jurnalistika ilə əlaqəsi olmadığından qəzet redaktorları üzərində təsir gücünə sahib deyildilər. İctimaiyyətin müdaxiləçi xəbərçilik tendensiyasından narahatlığı artdığından hökümət mətbuatı ifrat məhdudiyyət olmadan tənzimləməklə hədələdi. Mətbuat xalqın məhrəmiyyətlə əlaqəli narahatlığının haqlılığını başa düşərək son bir şans kimi özünütənzimləmə qurumu olan Mətbuat Şikayət Şurasını təşkil etdi.

1991-ci ildə fəaliyyətə başlayan komissiya tabloidlərin nümayəndələri də daxil olmaqla 16 üzvdən ibarətdir. 2002-ci ilin iyulu etibarı ilə tənzimləmənin əsası sayılan doğruluq, cavabvermə fürsəti, məxfiliyə hörmət, gizli dinləmə cihazlarından imtina vəs. bənzər 16 maddədən ibarət olan "Tətbiq qanunları" adlanan qaydalar toplusu qəbul olundu. Komissiyanın fəaliyyətə başlamasından 18 aylıq sınaq müddətindən sonra MŞK-a 2069-a yaxın şikayət daxil oldu. Bunların 1/4-i şikayətçi və günahkar arasında həll olundu, digərləri isə qanunların pozulmadığı müəyyən olunduqdan sonra şikayətlər geri çəkildi. Bir müddətdən sonra isə şikayətlərin sayı 107-ə qədər azaldı.

Ümumiyyətlə, Birləşmiş Krallıqda mətbuat birbaşa olaraq tənzimlənmir. Lakin bir sıra başqa sahələrə aid olan qanunlar da mətbuata bilavasitə təsir göstərə bilər. Məsələn, sənaye qanunlarının qəzet istehsalına da təsiri vardır. Böhtan, təhqir, əxlaq, məxfilik ilə əlaqəli qanunların çoxu mətbuatda yer alan hər hansı bir kontekstə qarşı istifadə oluna bilər [ 31].

Lord Campell tərəfindən ortaya atılan "Ədəbsiz yayımlar haqqında qanun" 1857-ci ildə qəbul olunmuşdur və "yalnız gənclərin əxlaqını pozmaq üçün yazılmış və profesinal redaktə olunmuş əsərlər"i əhatə edirdi. Bu qanun əslində jurnalistikadan daha çox internet, video, romanlar üzərində təsirini göstərirdi.

“Təhqir qanunları” isə İngiltərədə nadirən tətbiq olunmuşdur. 1977-ci ildə xristian aktivist olan Mari Vaythaus "Gay News" jurnalını bu qanuna əsaslanaraq məhkəməyə vermişdi. Jurnalda İsanın çarmıxa çəkilməsinə dair erotik şeir yayınlanmışdı. Məhkəmənin qərarı isə redaktor ve qəzetə pul cəzası verilmişdi.

Britaniyada böhtanla bağlı qanunlar müvafiq qanunlara tabe olan ABŞ mətbuatından fərqli olaraq daha məhdudlaşdırıcıdır və məhkəmələr çox vaxt qəzetlərin iddiaçılara böyük məbləğlər ödəməsi ilə nəticələnir. Bununla belə, təqsirləndirilən qəzet üçün müəyyən müdafiə tədbirləri də mövcuddur; məsələn, böhtanın doğrulanması, yəni həqiqət ən yaxşı müdafiə hesab olunur, həmçinin nəşrə əvvəlcədən razılıq vermiş heç kəs böhtanla heç bir qəzeti təqsirləndirə bilməz. Birləşmiş Ştatlardan

fərqli olaraq, böhtan işində iddiaçının pis niyyətini sübuta yetirməsinə ehtiyac yoxdur. Nəticə, Corc Monbiotun fikrincə, "zəngin və qüdrətli insanlar qanuna görə, son dərəcə ehtiyatla davranılmalıdır" idi.

2000-ci ildə Avropa Birliyinin İnsan Hüquqları Konvensiyası qüvvəyə minmişdir. Həmin konvensiyanın 10-cu maddəsi ifadə azadlığını əsas hüquq kimi göstərməsinə baxmayaraq başqalarının hüquq və azadlıqlarını qorumaq üçün "demokratik cəmiyyətdə zəruri olduqda" bu azadlığı məhdudlaşdıran qanunlara icazə verilir. 2000-ci illərin əvvəllərində bu maddənin Britaniyanın böhtan qanununa necə təsir edəcəyi hələ aydın deyildi, lakin bu qəzetlərin qeyri-ciddi böhtan hərəkətlərindən qorunmağa kömək etmişdir [34].

1911-ci ildə yaradılan və 1989-cu ildə islahata uğrayan Rəsmi Sirrlər Aktı potensial olaraq hökumət tərəfindən jurnalistləri və ya redaktorları qorxutmaqla utandırıcı faktları gizlətmək üçün istifadə edilə bilər. 1989-cu il qanunu bu sui-istifadədən qorunmaq üçün bir tədbir təklif etdi. Bu təklif cinayətlərin dairəsini daraltmaqla və pozuntuların zərərə səbəb olduğunu sübut etmək şərti ilə ittiham tərəfinin üzərinə daha çox yük qoydu.

Britaniyanın məxfilik mədəniyyəti 1990-cı illərdə çoxlu tənqidləri özünə çəkməyə davam etdi və 2000-ci ilin sonunda İnformasiya Azadlığı Aktı qəbul edildi. 2005-ci ilin sonuna qədər tam tətbiq edilməli olan bu qanun milli təhlükəsizlik də daxil olmaqla, müəyyən edilmiş hallar istisna olmaqla, müxtəlif dövlət qurumlarının öz qeydlərini ictimaiyyətə təqdim etmək vəzifəsini ortaya qoydu. Lord Kansler Departamentinə görə, bu akt "dövlət idarəçiliyində daha çox şəffaflığa doğru əsaslı keçidə imkan verəcək".

Yazılmamış konstitusiyaya malik olan Britaniya, mətbuat azadlığını təmin etmək üçün Birləşmiş Ştatların Birinci Düzəliş kimi təməl müdafiədən məhrumdur. Bununla belə, yuxarıda qeyd edildiyi kimi, Britaniyanın mətbuat azadlığı

ənənəsi dərindir; jurnalistlər bu ənənəni qısqanclıqla qoruyurlar və ümumiyyətlə bu məsələdə ictimai dəstək alırlar.

Gündəlik təcrübəyə görə Britaniya mətbuatı dünyanın ən azad mətbuatıdır. Bununla belə, geniş şəkildə qəbul edilir ki, milli fövqəladə vəziyyətlərdə, məsələn, Birinci və İkinci Dünya Müharibəsi zamanı milli maraqlar, o cümlədən milli təhlükəsizlik məsələləri senzuraya haqq qazandırır. Məsələn, İkinci Dünya Müharibəsi zamanı kommunist qəzetləri, “The Daily Worker and Week” ictimai mənəviyyata zərər verəcəyindən qorxaraq nazirliyin fərmanı ilə bağlandı. Bu senzura aktları nisbətən mübahisəsiz idi. 1982-ci ildə Folklend Müharibəsi zamanı məlumatların verilməsinə məhdudiyyətlər və 1988-1994-cü illər arasında Sinn Fein nümayəndələrinin bəyanatlarının yayımlanmasına qadağa qoyulması kimi bəzi hərəkətlər daha çox tənqidə səbəb oldu [30].

Digər demokratik ölkələrdə olduğu kimi İngiltərə də mətbuatı tənzimləmək üçün daha az rəsmi vasitələrdən istifadə etməyə üstünlük verir. Habelə, bir neçə tənqidçinin fikrincə böhtan, ədəbsizlik və ya küfr qanunları əsasında mühakimə olunmaq qorxusu “ən yaxşı avtoritar ənənə” adlandırılan özünüsenzuraya səbəb ola bilər. Bununla belə, Britaniyanın nisbətən təhlükəsiz liberal ənənələrinin əlamətidir ki, sülh dövründə açıq senzura nadirdir.

Britaniyada mətbuatdan danışarkən beynəlxalq xəbər agentliyi olan “Reuters” dən bəhs etməmək olmaz. “Reuters” dünyanın 200-ə yaxın yerində təxminən 2500 jurnalist və 600 fotomüxbirin işlədiyi ən böyük xəbər agentliklərindən biridir. Dünyanın ilk xəbər agentliyi olaraq 1851-ci ildə Londonda alman əsilli Paul Reuter tərəfindən yaradılmış, daha sonra 2008-ci ildə “Thomson Corporation” a satılmışdır.

2000-ci ildə Kardiff Universitetində mühazirə edən “Reuters” İnternet xidmətləri direktoru Mark Vud bildirmişdir ki, agentlik hər gün iyirmi iki dildə təxminən 10.000 xəbər hazırlayır. “Reuters” həmçinin “Yahoo” da daxil olmaqla, 900 veb-sayta xəbərlər təqdim edərək internet üçün qlobal aparıcı xəbər təchizatçısına

çevrilmişdir. Vud agentliyin rəqibləri arasında heç bir Britaniya şirkətini qeyd etməməsi də diqqət çəkmişdir. Maliyyə xəbərlərində isə əsas rəqiblər olaraq "Bloomberg" və "Dow-Jones" un adları çəkilir. Beynəlxalq xəbər dünyasında isə "Associated Press" və Fransadakı təmsilçisi olaraq fəaliyyət göstərən "Agence France-Presse" agentliyin əsas rəqibləri hesab olunur. Bu nəticə xəbər agentliyin nüfuz sahəsinin tam beynəlxalq olduğunu vurğulayır [55].

İyirmi birinci əsrin əvvəllərində media mühiti sürətlə dəyişir. Qəzet oxuyanların sayı 40 illik müddət ərzində uzunmüddətli tənəzzüldədir, lakin Londonda yerləçən milli mətbuatın üstünlük təşkil etdiyi Birləşmiş Krallıq qəzet oxucularının ən çox oxuduğu ölkələrdən biri olaraq qalmaqdadır.

Qlobal reytinqə görə isə Böyük Britaniya Qərbi Avropada mətbuat azadlığı üçün ən pis mühitlərdən birinə malikdir. Jurnalistlərə qoyduğu məhdudiyyətlər səbəbindən ingilis mətbuatı Uruqvay, Samoa və Çili kimi ölkələrdən aşağıda yerləşir.

Jurnalist azadlıqları üçün kampaniya aparan "Sərhədsiz Reportyorlar" təşkilatı bildirib ki, Böyük Britaniya illik Dünya Mətbuat Azadlığı İndeksində 180 ölkə arasında 40-cı yerdə qərarlaşıb, Trinidad və Tobaqo və Burkina Faso arasında qalıb. Bu təşkilat ingilis hökümətinin daha sərt mətbuat tənzimlənməsinin tətbiqi təkliflərini, hökumətin "WhatsApp" kimi xidmətlərdə şifrələməni məhdudlaşdırmaq kampaniyasını və Leyboristlər və Mühafizəkarların 2017-ci il ümumi seçkiləri zamanı jurnalistlərə siyasətçilər barəsində qoyduğu məhdudiyyətləri ölkədə mətbuata münasibətdə "ağır təzyiq" in sübutu kimi göstərib [62].

# II FƏSİL: AZƏRBAYCAN LOBBİSİNİN VƏ DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN İNGİLİS MƏTBUATINDAKI YERİ

## 2.1. Azərbaycan lobbiçiliyinin ingilis mətbuatındakı imici

2017-ci ilin noyabrında “The Guardian” da yer alan araşdırmaya görə Azərbaycanın hakim elitası lobbiçilik fəaliyyəti adı altında bir sıra Britaniya şirkətlərinin qeyri-şəffaf şəbəkəsi vasitəsilə tanınmış avropalı siyasətçilərə ödəniş etmək, dəbdəbəli həyat tərzi yaşamaq və çirkli pulların yuyulması məqsədi güdən 2,9 milyard dollar (2,2 milyard funt-sterlinq) həcmindəki məxfi bir sistemə başçılıq edir.

Sızdırılan məlumatlar göstərir ki, ardıcıl insan haqlarının pozulması, sistematik korrupsiya və seçki saxtakarlığı səbəbilə ittiham olunan Azərbaycan rəhbərliyi 2012-ci ildən 2014-cü ilə qədər 16 min dəfədən artıq gizli ödəniş həyata keçirib. Həmin ödənişlərin bir hissəsi Azərbaycan prezidenti İlham Əliyevin tənqidindən yayındırmaq və onun neftlə zəngin ölkəsinin müsbət imicini gücləndirmək üçün beynəlxalq lobbiçilik əməliyyatı çərçivəsində siyasətçilərə və jurnalistlərə edilib. Sözsüz ki, bütün alıcıların pulun əsl qaynağından xəbərdar olması kimi bir iddia mövcud deyil. Bəzi şəxslərin bilavasitə yolla bu sistemin bir parçası olduğu düşünülür.

Lakin yenə də məlumatlarda vergi orqanlarının yurisdiksiyasından kənarda böyük məbləğdə pul köçürmək məqsədi daşıyan “yüngül” tənzimlənmiş Britaniya korporativ mühitinin mövcudluğu və ondan istifadə bir daha vurğulanır. İngiltərədə bu sistem çərçivəsində dəbdəbəli həyat tərzinə və özəl məktəb ödənişlərinə yeddi milyon funt xərcləndiyi iddia edilir.

Həmçinin, bu mənbələrdə bildirilir ki, Azərbaycanda və Rusiyada bir sıra qeyri-şəffaf ödəniş menecerlərinin verdiyi nağd pullar Qərb maliyyə sistemi vasitəsilə heç bir mənaeyə rast gəlmədən Britaniya şirkətlərinə – hamısı Londonda Şirkətlər Evində qeydiyyatdan keçmiş tərəfdaş qurumlara gedirmiş.

Avropanın aparıcı banklarından biri olan Danske Bankın Estoniyadakı filialı vasitəsilə ödənişlərin həyata keçirildiyi məlum olub. Danske Bank "çirkli pulların yuyulması və digər qanunsuz əməllərin" baş verdiyini təsdiqləyib. Bank ilk dəfə 2014-

cü ildə qeyri-qanuni ödənişlərin müşahidə edildiyini bildirib. Estoniyanın maliyyə tənzimləyicisi isə filialda çirkli pulların yuyulmasının qarşısını almaq məqsədilə hazırlanmış sistemlərin uğursuz nəticələndiyini bildirib.

Guardian bütün bu sxemin günahkarı və dəstəkçisi olaraq Azərbaycan rəhbərliyini gördüyünü açıq-aydın bildirmişdir:

"Azərbaycan 1991-ci ildə SSRİ dağıldıqdan sonra müstəqillik qazanan 15 dövlətdən biri olmuşdur. Bu yeni dövlərdən bəziləri demokratiya yolunu seçərkən Azərbaycan Sovet dövrünün lideri Heydər Əliyevin və 2003-cü ildən sonra hakimiyyətə gələn oğlu İlham Əliyevin idarə etdiyi sülalə siyasətinə tab gətirə bilmədi. Yaxşı əlaqələri olan elita 2000-ci illərdə yüksələn neftlə zəngin iqtisadiyyatın qənimətlərini bölüşərkən, rəqiblərini ortadan qaldırmıağa və medianın ağzını bağlamağa nail olmuşdur. İndi bank sənədləri göstərir ki, elitalar lobbiçiləri mükafatlandırmaq, lüks əşyalar almaq və Avropa iqtisadiyyatında nağd pul yumaq üçün yüngül tənzimlənən ingilis şirkətləri mexanizmləri vasitəsilə ölkədən milyardlarla pul çıxarıblar. Bu sxemə "Azərbaycan Camaşırxanası" ləqəbi verilib."

Məxfi bank qeydləri Danimarkanın "Berlingske" qəzetinə sızdırılıb və Mütəşəkkil Cinayətkarlıq və Korrupsiyaya dair Hesabat Layihəsi (OCCRP), The Guardian və digər media tərəfdaşları ilə paylaşılıb. Məlumatlar 30 aylıq dövrü əhatə etsə də, bunun hələ aysberqin görünən hissəsini olduğu təxmin edilir.

Sızdırılan bank hesabatları Avropa Şurası Parlament Assambleyasının bir neçə keçmiş üzvünə çoxsaylı ödənişlər edildiyini göstərir. Bunlardan biri Almaniyanın keçmiş deputatı və Angela Merkelin hakim Xristian Demokratlar Partiyasının Bavariyadakı qardaş partiyası olan Xristian Sosial Birliyinin üzvü Eduard Lintner, digəri assambleyadaki sağ mərkəz qrupunun keçmiş italiyalı sədri Luka Volontedir.

Ödənişlər Azərbaycanın hüquq müdafiəçiləri və jurnalistləri həbs etdiyinə, saxta seçkilər keçirdiyinə görə tənqid atəşinə tutulduğu bir vaxta təsadüf edib. Azərbaycandakı hakimiyyətin "caviar diplomacy" adlanan üsul vasitəsilə müəyyən nümayəndələrə rüşvət verməklə Avropadan və ABŞ-dan açıq-aşkar tənqidləri

səngitməyə çalışdığı düşünülür. Bu intensiv lobbiçilik əməliyyatı o qədər uğurlu oldu ki, Avropa Şurası üzvləri 2013-cü ildə Azərbaycanı tənqid edən hesabatın əleyhinə səs verdilər.

Eduard Lintner 2010-cu ildə deputatlıqdan istefa versə də, hələ də Azərbaycanın qəti tərəfdarı olaraq qalmaqda idi. O, daha sonra Berlində 819,500 avroya (755,000 funt sterlinq) başa gələn Berlində Almaniya-Azərbaycan Münasibətlərinin Təşviqi Cəmiyyətinin əsasını qoymuşdu. Lintnerə 2013-cü il prezident seçkilərini izləmək üçün gəldiyi Azərbaycan səfərindən Berlinə qayıtdıqdan iki həftə sonra 61 000 avro məbləğində bir ödəniş edilib. Onun sözlərinə görə "əhəmiyyətli problemlər" aşkar edən rəsmi seçki müşahidəçilərindən fərqli olaraq keçirilən seçki prosesi tamamilə "Alman standartlarına" uyğun idi. Rüşvət almaqla günahlandırılan Lintner bildirib ki, o, pulu öz cəmiyyəti üçün alıb, şəxsi bir maraqı olmayıb, həmçinin ödənişin olduğu ərəfədə deputat və ya Avropa Şurasının üzvü olmadığını qeyd edib. Bundan əlavə seçki səfərinin xərcini Azərbaycan QHT-nin ödədiyini və alınan ödənişlərin ilkin mənbəyi barədə məlumatının olmadığını söyləyib.

Luca Volonteyə verilən nağd pulların təfərrüatları isə 2016-cı ildə ortaya çıxdı. O, İtaliyada yerləşən “Novae Terrae” fondu vasitəsilə 2 milyon avrodan artıq gəlir qazanıb. Milandakı prokurorlar onu çirkli pulların yuyulması və korrupsiyada ittiham edirlər. Volonte isə bütün bu ittihamları inkar edərək işin dayandırılmasını istəyir.

Məlumatda həmçinin keçən il Londonda yerləşən Avropa Yenidənqurma və İnkişaf Bankının idarə heyətinə təyin edilmiş bolqar Kalin Mitrevə Britaniya şirkətləri vasitəsilə pul ödənildiyi də göstərilir. Mitrev yerli Azərbaycan şirkəti olan “Avuar Co” dan özəl konsaltinq işi üçün ən azı 425 000 avro alıb. O, ödənişləri qəbul edir və onların qanuni biznes məsləhəti üçün olduğunu deyir. O, onları həyata keçirmək üçün istifadə olunan kanal və ya vəsaitin ilkin mənbəyi haqqında bütün məlumatları inkar edir. "Müxtəlif ölkələrdəki fəaliyyətlərdən əldə edilən bütün gəlirlər mənim yaşadığım ölkə Bolqarıstanda lazımi qaydada hesabat edilib və vergiyə cəlb edilib", - Mitrev bildirib. Onun sözlərinə görə, London bankına işə başlayanda onun məsləhətçi fəaliyyəti dayanıb.

Ərinin Azərbaycan şirkətləri ilə korrupsiya məsələlərində adının çəkilməsi Mitrevin həyat yoldaşı, YUNESKO-nun baş direktoru İrina Bokova üçün də "təhlükəli" görünə bilər. Habelə, Bokova Azərbaycanın birinci xanımı və vitse-prezidenti Mehriban Əliyevanı YUNESKO-nun ən yüksək mükafatlarından biri olan Motsart medalı ilə təltif etmişdi. O, həmçinin YUNESKO-nun Parisdəki baş qərargahında Heydər Əliyev Fondunun təşkil etdiyi "Azərbaycan-Tolerantlıq diyarı" adlı fotosərgiyə ev sahibliyi də edib.

Guardian ərinin işi ilə BMT-dəki rolu arasında hər hansı bir əlaqə olub-olmadığını soruşduqda, o, ərinin biznes işlərindən xəbəri olmadığını bildirərək bunu qəti şəkildə təkzib edib. "BMT agentliyinin baş direktoru kimi mənim vəzifəm üzv dövlətlərin müəyyən etdiyi siyasətlərə uyğun olaraq təşkilatın bütün üzvləri ilə sağlam işgüzar əlaqələri inkişaf etdirməkdir. Azərbaycan da bu baxımdan istisna deyil. Mən insan hüquqları, ifadə azadlığı və jurnalistlərin təhlükəsizliyi sahəsi də daxil olmaqla, YUNESKO-nun mandatına dair qətiyyətli axtarışımdan hədsiz qürur duyuram."

Azərbaycan Camaşırxanasının mərkəzində yerləşən dörd firmanın hamısının Böyük Britaniyada qeydiyyatdan keçmiş məhdud ortaqlıqlar olduğu görünür: Birmingemdə "Metastar Invest"; Qlazqoda qurulan "Hilux Services" və "Polux Management" və "LCM Alliance". Onların korporativ "tərəfdaşları" isə Britaniya Virgin Adaları, Seyşel adaları və Belizdə yerləşən anonim "vergi cənnəti" hesab olunan qurumlarıdır.

Bank məlumatları göstərir ki, ödənilən ümumi məbləğin 2,9 milyard dollardan çoxu şirkətlərə, təxminən 50 milyon dollar isə fiziki şəxslərə ödənilib. Böyük Britaniyaya edilən 200 pul köçürməsindən bəziləri isə təhsillə bağlı olub. 2014-cü ildə 89,800 funt sterlinq Yorkdakı özəl internat məktəbi "Queen Ethelburga's Collegiate" ə köçürülüb. Bundan başqa "Bellerbys" təhsil kollecinə və Londondakı ICS beynəlxalq məktəbinə də bir sıra ödənişlərin həyata keçirildiyi ortaya çıxıb. [60]

2020-də yenidən alovlanan və müharibəyə çevrilən Dağlıq Qarabağ münaqişəsi isə həm Cənubi Qafqaz regionu, həm də beynəlxalq ictimaiyyət üçün əsas

prioritetdir. Erməni əsilli siyasi analist olan Anna Barseqyana görə sentyabrın 28-də başlayan müharibə Ermənistan üçün gözlənilməz hesab olunmurdu. Onun fikirlərinə görə ermənilər üçün Azərbaycanın ritorikası, diskursu və fiziki davranışı yeni müharibənin hər zaman mümkün olduğunu açıq şəkildə göstərirmiş. Əslində o, bu fikri ilə ölkəmizin aqressiv siyasət yürütdüyü anlayışını aşılamaq istəyir. Hal-hazırda regionun mübahisəli tarixi və münaqişədə kimin günahkar olduğunu müzakirə edən yüzlərlə nəşr mövcuddddur. Diplomatiyadan başqa Ermənistan və Azərbaycan üçün beynəlxalq cəmiyyətdə öz səslərini eşitdirmək və dəstək qazanmaq üçün bir neçə yolu vardır.

Buna görə də, müxtəlif beynəlxalq təşkilatlar və milli hökumət orqanları daxilində ictimai diplomatiya və lobbiçilik fəaliyyətləri hökumətlər üçün həyati əhəmiyyət kəsb edir. Buna baxmayaraq, bu cür fəaliyyətlər çox vaxt qanunun pozulması ilə nəticələnə bilər.

2020-ci ilin 16 noyabrında erməni əsilli siyasi analist Anna Barqesyanın Avropada, həmçinin İngiltərə də Azərbaycan və erməni lobbilərinin fəaliyyət metodlarının ziddiyyətli məqamlarına toxunduğu və daha çox tərəfli fikirlərinin yer aldığı məqaləsində öz ölkəsinin təcavüzkar siyasətini göz ardı edərək ölkəmizin lobbiçilik sistemi adı altında qanunsuz fəaliyyətlərindən bəhs edir.

Məqalədə "caviar diplomacy" məsələsi daha çox vurğulanır. Bu termin 2012-ci ildə "Azərbaycan Avropa Şurasını necə susdurdu?" adlı araşdırma hesabatı dərc edildikdən sonra geniş istifadə olunmağa başlandı. Hesabata görə, "caviar diplomacy" Azərbaycan rəsmilərinin beynəlxalq lobbiçiliklərinin bir hissəsi kimi istifadə etdikləri alətlər toplusunu təsvir edir. Bu, adətən zərflərdə nağd pul, köhnə Avropa şəhərlərində kilsələrin bərpası və dini tolerantlıq mövzusunda beynəlxalq konfransların keçirilməsi üçün ödənişlər də daxil olmaqla müəyyən şəxslər üçün fərdi mükafatları əhatə edir.

"Freedom Files" Analitik Mərkəzinin "Avropa dəyərləri alınıb-satılır" hesabatına əsasən, Azərbaycanın lobbiçilik fəaliyyəti aşağıdakı ideyaları təbliğ etmək məqsədi daşıyır:

- Azərbaycan Aİ-nin enerji təhlükəsizliyi üçün mühüm oyunçudur.
- Qərb Azərbaycanın ərazi bütövlüyünü dəstəkləməlidir.
- Azərbaycan müsəlmanların çoxluq təşkil etdiyi dünyəvi dövlətdir.
- Azərbaycan multikultural tolerantlıq üçün nümunədir (Xüsusən də Bakının İsraillə əməkdaşlığı və digər ölkələrdəki yəhudi təşkilatları ilə əlaqələri tez-tez vurğulanır)
- Azərbaycan gənc demokratiyadır, demokratik təsisatların inkişafı üçün vaxt lazımdır və çox sərt mühakimə edilməməlidir.

Barqesyana görə bütövlükdə ölkəmizin bu məqsədlərə nail olunduğu görünür. Çünki o bildiri ki, Azərbaycan təşkilatın qaz tələbatının yalnız bir faizini təmin etməsinə baxmayaraq, Avropada özünü Aİ-nin enerji təhlükəsizliyinin mühüm hissəsi kimi yerləşdirib. Azərbaycan lobbiçiləri üçün ən mühüm mərkəz Strasburqdur ki, burada onların nəinki Avropa institutlarına, həm də AŞPA deputatları kimi fəaliyyət göstərən milli parlamentlərin üzvləri ilə asanlıqla əlaqədə olurlar.

Analist Azərbaycanın lobbi maşınının əsas oyunçularından biri kimi Avropa Azərbaycan Cəmiyyətinin adını çəkir (TEAS). Məqalə də deyilir ki, onlar "Azərbaycanın Mühafizəkar Dostları" Böyük Britaniya Parlament Qrupuna pul ianə edib və bir çox britaniyalı deputatların ölkəyə səfərlərini maliyyələşdiriblər. Bu günlərdə britaniyalı müstəqil jurnalist Andre Uolker özünün YouTube kanalında 27 sentyabrda Dağlıq Qarabağı işğal etməzdən əvvəl Vestminsterin Azərbaycan tərəfindən rüşvət aldığını açıqlayıb. Belə "camaşırxana işlərində" əli olan bir neçə yüksək vəzifəli Avropalı məmur Azərbaycanpərəst fəaliyyətlərinə görə milyonlarla dollar alıblar. Təbii ki, ən qalmaqallı işi AŞPA-nın 2017-ci ildə təşkilat daxilində korrupsiya iddialarını müzakirə edən Müstəqil İstintaq Orqanı açdı. İddiaya görə, Avropa Şurası Parlament Assambleyasının bir neçə üzvü qurumun etika qaydalarını

pozub və korrupsiyada ittiham olundular. Daha sonra bu üzvlərə qarşı sanksiyalar tətbiq edildi.

Barqesyan bir daha vurğulayır ki, Azərbaycan neft pullarından Avropada nüfuz almaq və Ermənistana qarşı hərbi və qeyri-hərbi fəaliyyəti üçün əlverişli şərait yaratmaq üçün istifadə edir. Ancaq analist özü ölkəsinin II Dağlıq Qarabağ müharibəsi zamanı mülki vətəndaşlarımızı qurban etdiyini baxmayaraq xarici ölkələrdə "qurban" roluna büründüyünü unudur.

O, Ermənistanın ən mühüm resursunun həm ölkə daxilində, həm də xaricdə insan kapitalı olduğunu bildirir. Bütövlükdə, Ermənistan və xüsusilə erməni diaspor icmaları Aİ institutlarına, Avropa Şurasına, ATƏT-ə və milli idarəetmə orqanlarına təzyiq göstərmək üçün güclü şəxsi əlaqələrdən və yerli təşkilatlardan istifadə edirlər. Əsas təbliğat mövzularına erməni "soyqırımı" nın tanınması, Türkiyənin pislənməsi və Dağlıq Qarabağ əhalisinin öz gələcəklərini təyin etmək üçün fundamental hüququ daxildir. Erməni "soyqırımı" nın tanınması və mübahisəli ərazinin öz müqəddəratını təyin etmənin təşviqi ölkənin əsas xarici siyasət məqsədləri olaraq qalmasına baxmayaraq, Ermənistanın yerli təşkilatları da Aİ-nin İrəvana yardımını təmin etmək üzərində işləyir.

Müharibə başlayandan bəri Avropadakı ermənilər bir çox ölkələrdə dinc nümayişlər təşkil ediblər. Onlar hökumətlərindən son vaxtlar Azərbaycana hərbi dəstəyini artıran Türkiyəyə qarşı sanksiyalar tətbiq etməyi tələb ediblər. Oktyabrın 7-də Avropa Parlamentinin mübahisəli regionla bağlı müzakirəsi başlamazdan əvvəl Brüsseldə Aİ qurumları qarşısında keçirilən nəhəng nümayişləri də qeyd etmək lazımdır. Erməni lobbiçilik fəaliyyəti kifayət qədər uğurludur, xüsusən də Aİ institutlarının icra hakimiyyətinin olmadığını nəzərə alsaq. Deklarativ müstəvidə Aİ-nin rəsmi açıqlamaları kifayət qədər ermənipərəstdir. Ancaq analist bildirir ki, fəaliyyətə gəldikdə, Aİ maraqları başqa cür danışır. Məsələn, parlamentin plenar iclasında münaqişə ilə bağlı çıxış edən 65 deputatdan 60-ı Ermənistan və qondarma "Artsax"ın lehinə danışıb. Əksinə, Avropa Komissiyasının bəyanatları kifayət qədər neytral və ya

zərbaycanpərəstdir. Bu səbəbdən Avropadakı bir çox erməni qitə boyu müxtəlif yolları bağlayaraq diqqəti münaqişəyə cəlb etmək qərarına gəlib. Buraya Belçika, Fransa, Almaniya, Lüksemburq, Hollandiya, İspaniya və İsveçrəni birləşdirən əsas yollar daxildir. Vətəndaş fəallığı yerli mediada məlumatlılığın artırılmasına kömək etsə də, daha geniş miqyasda bu hərəkətlərin az təsiri olmuşdur.

Nəticə olaraq, Barqesyan bu qərara gəlir ki, həm Azərbaycan, həm də erməni lobbiləri bütün Avropada çox fəaldırlar. Bununla belə, onların "alət dəstləri" və ya təsir vasitələri tamamilə fərqli olaraq qalır və çox vaxt mübahisəlidir. Bu, demokratiyanın daxili səviyyəsini və əyriliyini əks etdirir. Ermənistan gənc bir demokratik ölkə kimi özünün xarici siyasət arsenalında demokratik vasitələrdən istifadə etməyə çalışır. Bu arada, Azərbaycan dünyanın ən qüdrətli ölkələrindən biri olmaqla öz daxili "siyasi ənənələrini" öz sərhədlərindən kənara "ixrac" etməyə çalışır. Ümumilikdə, Azərbaycan lobbiçiliyi Aİ-nin qərar qəbul etmə prosesinə təsir etməkdə kifayət qədər uğurlu olsa da, erməni lobbiçiliyi vətəndaş fəaliyyətində daha çox uğur qazanıb. Sonda erməni analist belə bir sual ortaya qoyur ki, "Aİ doğurdan da öz dəyərlərinə mi əsaslanır yoxsa maraqlar hər şeydən üstündür mü?" [62].

## 2.2. I və II Dağlıq Qarabağ müharibələrinin ingilis mətbuatında əks olunması

Münaqişə 1987-ci ildə başlandığı zaman ingilis mətbuatında bu münaqişənin işıqlandırılması Krallığın Cənubi Qafqazdakı tarixi, geosiyasi və iqtisadi maraqlarına görə əhəmiyyət kəsb edirdi. Belə ki, 1918-1919-cu illərdə regionda fəal şəkildə öz yerini möhkəmləndirməyə çalışırdı.

*Dağlıq Qarabağ münaqişəsi və region haqqında ingilis mediasında əks olunan xəbərlərin ümümi təhlili*

1988-ci ilin fevral ayından etibarən Britaniyanın aparıcı KİV-ləri münaqişəyə çoxsaylı xəbərlər və bir sıra aparıcı məqalələr həsr etmişlər. Bu mətnlər Britaniya mediasının Dağlıq Qarabağ bölgəsini, münaqişəni və onların tarixlərini necə müəyyənləşdirdiyini və təqdim etdiyini nümayiş etdirir. Əlbəttə ki, azərbaycanlılar və ermənilər regionun tarixi ilə bağlı ziddiyyətli diskurslara malikdirlər. Dominant erməni diskursuna görə, Dağlıq Qarabağ bölgəsi qədim zamanlardan Ermənistanın siyasi və yaxud coğrafi anlayışının bir hissəsi olmuşdur [22, s.1-2, 257]. Azərbaycanın tərkibində Dağlıq Qarabağın tarixinə gəlincə, erməni tarixçiləri yazırlar ki, Sovet hakimiyyəti qurulduqdan sonra azərbaycanlı kommunistlər bu bölgənin Sovet Ermənistanının tərkibinə keçəcəyini bəyan etmişlər, lakin sonra bu qərar geri çəkilmişdir [33, s.39; 22, s.382-383, 399]. Aparıcı Azərbaycan tarixi diskursunda isə hesab olunur ki, Qarabağ heç vaxt Ermənistanın tərkibində olmayıb və o, qədim zamanlardan VIII əsrin əvvəllərinə qədər indiki Azərbaycan xalqının əcdadlarından biri olan Qafqaz Albanlarının krallığının bir hissəsi olub. O vaxtdan XIX əsrə qədər müxtəlif müsəlman dövlətlərinin və dövlət qurumlarının tərkibində, 1918-ci ildən isə Azərbaycanın tərkibində olmuşdur [8, s95].

Britaniya mediası çox vaxt münaqişənin əsas səbəblərini başa düşmək üçün tarixə müraciət edirdi. Problemlə bağlı ilk dəfə 1988-ci il fevralın 24-də məlumat verən "The Times" qəzetindən Kristofer Uokerin yazdığına görə, "erməni millətçiləri" 1917-ci il inqilabından əvvəl onlara məxsus olan Dağlıq Qarabağ Muxtar Vilayətinin yenidən Ermənistana qaytarılmasına can atırdılar. Üç gün sonra başqa bir hesabatda Uoker heç bir istinad etmədən yazırdı ki, Dağlıq Qarabağ "ilk dəfə eramızın I əsrində ermənilərin nəzarətində olub və 1923-cü ildə qonşu Azərbaycan Sovet Respublikasına verilib" [38]. 3 mart 1988-ci ildə "The Guardian", BBC rus xidmətindən Diran Meqreblyanın məqaləsini dərc etdi. Məqalədə digərləri ilə yanaşı qeyd olunurdu ki, Azərbaycan və Ermənistanda Sovet hakimiyyəti qurulduqdan sonra "Qarabağın adı "nagorny" sözü əlavə olunaraq dəyişdirildi, hansı ki, bu söz rus dilində dağlıq deməkdir. Əsrlər boyu burada əsasən etnik ermənilər məskunlaşsa da, zoraki şəkildə Azərbaycanın nəzarəti altına alınmış, Ermənistanla əlaqəsi kəsilmişdi". Ermənilərin

lehinə əks etdirilən regionun tarixi tez-tez The Guardian tərəfindən təkrarlanırdı. Conatan Stil Ermənistan Ali Sovetinin sədri Qrant Voskanyandan sitat gətirərək yazırdı:

"Sovet hakimiyyəti 1920-ci ilin dekabrında Ermənistana çatdıqdan bir gün sonra… Azərbaycan inqilab komitəsi Dağlıq Qarabağın Ermənistanın tərkibinə daxil edilməsi haqqında qərar qəbul etdi. ... Lakin az sonra, millətçi təzyiq altında... Azərbaycan komitəsi öz mövqeyini dəyişdi… Stalinin təkidi ilə 1921-ci il iyulun 5-də qərar ləğv edildi." [32].

Bu hissədə Stil Voskanyana istinad etsə də, sonrakı hesabatlarda heç bir istinad etmədən oxşar fikri təkrar edərək yazırdı ki, "əhalinin əksəriyyəti erməni olan Dağlıq Qarabağ rayonu 1921-ci ildə çıxarıldığı Ermənistana birləşdirilə bilərdi" və ya: "Stalin ən pis qərarlarından biri kimi erməni əhalisinin çoxluğuna baxmayaraq, ərazini Azərbaycana verməsini göstərirdi." (1989). "The Independent"dən Rupert Cornwell Dağlıq Qarabağ probleminin mənşəyinə toxunarkən, mənbəsini açıqlamadan yazır ki, problemin əsas səbəbi "ermənilərin Dağlıq Qarabağın Azərbaycan administrasiyasından 1923-cü ildə qoparıldığı Ermənistana qaytarılması istəyidir.". Helen Vomak, həmçinin "The Independent"dən yazırdı ki, Dağlıq Qarabağ "qədim dövrlərdən bəri Ermənistanın bir hissəsidir və hələ də əksəriyyəti ermənilərdən ibarətdir, lakin Leninin 1923-cü ildəki qəararı ilə Azərbaycana verilmişdir" (1990) və ya: "Dağlıq Qarabağın dağlıq bölgəsi, İrəvanla yenidən birləşmək istəyən əsasən xristian ermənilərdən ibarət olan bu şəhər 1922-ci ildə Lenin onu müsəlman Azərbaycanına birləşdirdikdən sonra Bakıdan idarə olunur" (1991).

Bölgənin tarixinin Britaniya media orqanları tərəfindən işıqlandırılmasının təhlili göstərir ki, onlar bunu - çox az istisnalarla - yuxarıda qeyd olunan xətt üzrə, ya mənbə kimi ermənilərə əsaslanaraq, ya da istinadsız, eyni və ya oxşar rəvayətləri təkrarlayaraq təqdim ediblər. Bundan əlavə, istər erməni müəlliflərin, istərsə də onlara rəğbət bəsləyənlərin bir sıra məqalələrinə geniş yer ayırıblar ki, bu da həmin qəzetlərdə regionun tarixi ilə bağlı erməni baxışlarının üstünlük təşkil etməsi ilə nəticələnib ki, bunu belə ümumiləşdirmək olar:

- Dağlıq Qarabağ 1917-ci il inqilabından əvvəl Ermənistana məxsus idi.
- Dağlıq Qarabağ eramızın I əsrindən 1923-cü ilə qədər Ermənistanın tərkibində olub.
- Dağlıq Qarabağ Böyük Ermənistanın tərkibində olub, lakin 1921-ci ildə Stalin tərəfindən müsəlman Azərbaycanına birləşdirilib.
- Ermənistanda sovet hakimiyyəti elan edildikdən sonra Azərbaycan Dağlıq Qarabağın Ermənistanın tərkibində olması barədə qərar çıxarsa da, qısa müddət sonra mövqeyini dəyişərək rayonun verilməməsinə çağırış etdi və bu, 5 iyul 1921-ci ildə Stalinin təkidi ilə dəyişdirildi.
- Dağlıq Qarabağ 1922 və ya 1923-cü ildən, Lenin onu müsəlman Azərbaycanına verdiyi vaxtdan Bakıdan idarə olunur.
- Dağlıq Qarabağın Ermənistana "yenidən birləşməsi" və "qaytarılması" kimi sözlərdən tez-tez istifadə edilməsi.

Bu xülasə, araşdırılan Britaniya mediasının bölgənin tarixinin təqdimatında ardıcıllığın olmadığını ortaya qoyur. Dağlıq Qarabağın Ermənistandan nə vaxt ayrılaraq Azərbaycana birləşdirilməsini müəyyən etmək mümkün deyil: 1917-ci il inqilabından sonra (fevral yoxsa oktyabr), 1920-ci ilin dekabrı, 1921-ci ilin iyulu, 1922-ci və ya 1923-cü il. Başqa sözlə, bölgənin yuxarıda sitat gətirdiyi tarixlər cavabdan çox suallar doğurur.

Münaqişə həm də dini-konfessional terminlərlə, yəni "xristian-şiə müsəlmanı" kimi müəyyən edilmiş və ya təsnif edilmişdir. Məsələn, "The Times"dan Kristofer Uolker yazırdı ki, Ermənistan və Azərbaycan respublikaları arasında vəziyyət ənənəvi olaraq gərgin olub, çünki ermənilər mömin xristian, azərbaycanlılar isə şiə müsəlmanlardır" [37]. Münaqişəni müsəlman-xristian münaqişəsi kimi təqdim edən və azərbaycanlıların əksəriyyətinin şiə olduğunu vurğulayan jurnalistlər dinə tez-tez istinad edirdilər. Məsələn, Filip Taubman yazırdı: "Moskva üçün son iğtişaşların narahatedici tərəflərindən biri də azərbaycanlıların işə qarışması idi. Çünki İslam fundamentalizmində ən çox açıq olan məzhəb olan əsasən şiə müsəlmanlardır" [34].

*Münaqişənin qeyri-hərbi mərhələsi, onun mənşəyi və nəticələri haqqında yazılan xəbərlər*

Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları ilk dəfə 1987-ci ilin noyabrında açıqlanmış, bu barədə 1988-ci ildə Britaniya qəzetləri məlumat vermişdilər.

"The Times"ın Britaniya müxbiri Robert Fisk, Livandan reportaj hazırlayan erməni müsahibi, "Daşnaksütyun" erməni millətçi partiyasının Beyrutdakı Mərkəzi Komitəsinin rəhbəri doktor Hratç Bedoyana istinadən yazır ki, "yuxarı sovet məmurlarının birincisi Londonda, ikincisi Parisdə olmaqla keçirilən iki şəxsi mühazirəsi ilin əvvəlində Kremli silkələyən hadisələrdən xəbər verirdi": digəri isə 1987-ci ilin sonunda Londonda Abel Aqanbeqyanın ermənilərin toplantısında "qeyri-rəsmi" bəyan edib ki, "Qarabağ problemi hal-hazırda "həll olunmuş" hesab olunur. Daha bir mühazirə olaraq 1987-ci ilin noyabrında Parisdə erməni yazıçısı Zori Balayanın oxşar bəyanatla çıxış etməsini göstərmək mümkündür. Həmçinin, onu da qetd etmək lazımdır ki, Aqanbeqyanın 1987-ci il noyabrın 16-da Parisdə təkcə Dağlıq Qarabağa deyil, həm də Azərbaycan SSR-də Naxçıvana qarşı ərazi iddialarını ehtiva edən bəyanatı sənədləşdirilib. Aqanbeqyan bildirdi ki, "mən gözləyirəm ki, yenidənqurma kontekstində Qarabağ və Naxçıvanın Ermənistana birləşdirilməsi məsələsi öz həllini tapacaq" [24, s.70].

Britaniyalı tədqiqatçı Tomas de Vaal bu münaqişə ilə bağlı kitabında münaqişənin ilk qaçqınları olan Ermənistandan Azərbaycana 1987-ci ilin noyabrında və 1988-ci ilin yanvarında gəlmiş azərbaycanlılar haqqında yazıb. Ancaq De Vaalın da qeyd etdiyi kimi, nə yerli mediada, nə də dünya mediasında bu barədə ümumiyyətlə məlumat verilməyib [19, s.19].

Daha sonra münaqişə çərçivəsində ölüm xəbərləri gəlməyə başladı.Sovet prokuroru 28 fevral tarixində etirazların ilk günlərində Dağlıq Qarabağın iki azərbaycanlı sakininin öldüyünü təsdiqləyib.

"Financial Times" bu barədə xəbər verir ki, "Azərbaycanın Ağdam rayonunda iğtişaşlarda iki nəfər həlak olub" [11], lakin onların etnik mənsubiyyətini qeyd etməyə

ehtiyac duymadı, ertəsi gün Sumqayıtdakı “iğtişaşlar” haqqında məlumat verərkən isə bunu açıq şəkildə bildirdi: "son iki həftə ərzində regionda baş verən toqquşmalarda iki azərbaycanlının öldürüldüyü bildirilirdi" [12]. İlk ölüm hadisələri haqqında The Times "Erməni ölümləri etiraf edildi" başlığı ilə xəbər verdiyi zaman artıq ölənlərin azərbaycanlı olduğu məlum idi [13]. Ertəsi gün Sumqayıt “iğtişaşları” ilə bağlı xəbərdə “İrq iğtişaşları müsəlman şəhərinə yayıldı: Qorbaçova acı zərbə” başlıqlı üç açar sözdən ibarət (“irq”, “iğtişaşlar” və “müsəlman”) xəbərlər yazıldı [14].

“The Guardian” isə məsələ ilə bağlı heç bir məlumat verməyib. “The Independent”ə gəlincə, onun onlayn arxivləri yalnız 1988-ci ilin sentyabrından mövcuddur.

“The Times”dan Kristofer Uolker yazır ki, “Ermənistan Kommunist Partiyasının ağır basilar məruz qalan lideri cənab Karen Dəmirçyan bazar ertəsi [29 fevral] yerli televiziya ilə çıxışında bildirib ki, bəzi azərbaycanlılar iğtişaşlar səbəbindən artıq respublikadakı evlərini tərk ediblər” [ 41]. Bununla belə, “The Guardian”dan Martin Uolker və Maykl Simmonsun ertəsi gün hazırladıqları hesabatda Ermənistandan qaçan azərbaycanlıların sayının “bir o qədər” olmadığı qeyd olunurdu:

“Son iki həftə ərzində Ermənistanı tərk etmiş azərbaycanlı qaçqınların öz evlərinə qayıtmasına kömək etmək üçün partiyanın yüksək vəzifəli məmurunun rəhbərliyi ilə rəsmi komissiya yaradılıb. Bu, qaçqınların mövcud olduğunun ilk göstəricisi idi. Rəqəmlər verilməsə də, dünən [2 mart 1988-ci il] Azərbaycan radiosunda verilən komissiya elanlarında qaçqınların vaqon, qatar və hava yolu ilə qayıtmaları üçün şərait yaradılacağı bildirilir və xeyli sayda insanın iştirak etdiyi aydın görünürdü. Qeyri-rəsmi mənbələrə əsaslanaraq yazırdılar ki, bir neçə min azərbaycanlı Ermənistandan, daha çoxu isə DQMV-dən qaçıb (1988)”

Azərbaycanlıların itkiləri ilə bağlı daha çox xəbər Sumqayıt "iğtişaşları" nəticəsində üzə çıxdı. Bunu "The Times" adi şəkildə azərbaycanlıların "islam hərbçiliyi" və "respublikalarının İrana fiziki yaxınlığı ilə həvəslənmələri" kimi izah etdi [41]. “The Times”ın Sumqayıt haqqında ilk reportajı martın 1-də “İrq iğtişaşları

